QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 122 (5594) 3 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Ölkəmizdə din-dövlət münasibətləri yüksək səviyyədədir

***İlham Əliyev: "Azərbaycanda dinlərarası məsələlərlə bağlı çox ciddi düşünülmüş dövlət siyasəti aparılır və bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir"***

Səh 2



13

"Afrikada "qapağan" dedikdə Ermənistan yada düşür"



5

Bakıda Dayanıqlı İnkişaf Məqsədlərinin milliləşdirilməsi və prioritetləşdirilməsi üzrə seminar keçirilir



7

Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb



# Ölkəmizdə din-dövlət münasibətləri yüksək səviyyədədir

*İlham Əliyev: "Azərbaycanda dinlərarası məsələlərlə bağlı çox ciddi düşünülmüş dövlət siyasəti aparılır və bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir"*



***Tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən, irqindən asılı olmayaraq, siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən Azərbaycanda firavan həyat sürməsinə əsas verir. Ölkəmizdə hər kəs ictimai mənsubiyyətindən, dinindən, irqindən asılı olmayaraq azad nəfəs alır, sərbəst fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir: "Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə, bu işlə məşğul olanların özlərinə xələl gətirəcək".***

Bu gün Azərbaycan sülhsevər bir dövlət olaraq dünyaya multikultural dəyərələrini, tolerant mühitini bəyan edir və özünün xoşməramlı mesajlarını göndərir. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər.

Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlara, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Bəli, bu gün Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrə böyük hörmətlə yanaşan bir ölkədir. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə iqamətgahında təşkil olunan iftar süfrəsində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, hər il olduğu kimi, biz bu il də, mübarək Ramazan ayında iftar məclisində görüşürük:"Bu gözəl ənənə yaşayır və yaşamalıdır. Bu, Azərbaycanda dövlət-din əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Dövlət-din münasibətlərinin formalaşmasının təşəbbüskarı Ulu Öndər Heydər Əliyev olmuşdur".

Azərbaycan xalqının öz milli dəyərlərinə sadiq olduğunu və Azərbaycan dövlətinin milli dəyərlər üzərində qurulduğunu bildirən Cənab Prezident Azərbaycanın dünya miqyasında dinlərarası və millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanındığını diqqətə çatdırıb: "Biz həm dünyaya Azərbaycandan çox ciddi və müsbət siqnal göndəririk, həm də ölkəmizin uğurlu inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmlidir. Bizim amalımız birdir, bizim niyyətimiz birdir. Biz istəyirik ki, ölkəmiz daha da güclənsin, daha da sürətlə inkişaf etsin. İstəyirik ki, Azərbaycan xalqı daha yaxşı yaşasın, rifah, sülh, əmin-amanlıq şəraitində yaşasın. Nəinki bunu istəyirik, öz praktiki addımlarımızla bunu təmin edirik".

## "DÖVLƏT DİNDARLARA DAİM DƏSTƏK VƏ DAYAQ OLUR"

Cənab Prezident Azərbaycanda dövlətdin münasibətlərinin necə qurulduğuna nəzər salarkən, vurğulayıb ki, Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin: "Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək və dayaq olur. Bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə bərpa edilibdir. Şeyx həzrətləri qeyd etdiyi kimi, indi Təzəpir məscidinin ətrafı təmizlənir. Onun ətrafı böyük bir ictimai zonaya çevriləcək, orada böyük park salınır. Çünki vaxtilə Təzəpir məscidinin ətrafındakı binalar onun əzəmətini gizlədirdi. İndi artıq məscidin bir hissəsi açılıb, böyük park salınır. Digər hissənin açılması gözlənilir və beləliklə, Azərbaycanda gözəl bir memarlıq ansamblı yaradılır".

Əlbəttə ki, dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycan modeli ölkəmizə gələn xarici qonaqlarda maraq doğurur. Çünki burada həm məscidlərimiz, həm də qeyri-xalqların dini abidələri qorunur və abadlaşır. "Bizim tarixi abidələrimiz və dini milli sərvətimizdir", -deyən Azərbaycan Prezidenti vurğulayıb ki, bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir və bizim sərvətimizdir: "Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir". Əlbəttə ki, qonaqlar abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzini, Katolik məbədini, İmamzadə kompleksini, möhtəşəm Heydər Məscidini görür və bunu heyranlıq hissi ilə qarşılayır və Azərbaycan təcrübəsini öyrənməyə çalışırlar.

## "...AZƏRBAYCAN HƏM İSLAM MƏDƏNİYYƏTİNİN TƏBLİĞİNƏ, HƏM İSLAM ÖLKƏLƏRİ ARASINDAKI HƏMRƏYLİK MEYİLLƏRİNƏ ÇOX GÜCLÜ TÖHFƏ VERİR"

Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi bəşəri dəyərlərə olan ali münasibətin daha bir təzahürü kimi qiymətləndirildi. "İslam Həmrəyliyi İli" çərçivəsində İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsinin Azərbaycanda bir araya gəlməsi islam dünyasında böyük təntənə kimi qəbul olundu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirib ki, Azərbaycan dünyada islam mədəniyyətinin təbliği işində çox fəal və uğurlu rol oynayır: "Biz dünyanın müxtəlif ölkələrində islam mədəniyyətinin təqdimatı ilə bağlı bir çox tədbirlər keçirmişik, keçiririk və keçirəcəyik. Sərgilər, mədəni proqramlar, təqdimatlar, konfranslar - bütün bu addımlar bir məqsədi güdür ki, dünyaya islam mədəniyyətini, islam dəyərlərini olduğu kimi təqdim edək, bəzi hallarda islam dini ilə bağlı təhrif edilmiş və yanlış fikirlərə qarşı öz səsimizi ucaldaq və real həqiqətləri çatdıraq... Bizim bu fəaliyyətimiz, bir daha onu göstərir ki, Azərbaycan həm islam mədəniyyətinin təbliğinə, həm islam ölkələri arasındakı həmrəylik meyillərinə çox güclü töhfə verir".

## "HEÇ BİR ÖLKƏ DAĞLIQ QARABAĞDA MÖVCUD OLAN KRİMİNAL, QONDARMA REJİMİ TANIMIR VƏ ƏMİNƏM Kİ, TANIMAYACAQ"

Cənab Prezident İslam Əməkdaşlıq Təşkilatının ölkəmizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daim dəstəklədiyini diqqəqət çatdırıb. Ölkə başçısı onu da bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq norma və prinsiplər əsasında həll olunmalıdır: "Dağlıq Qarabağ bizim tarixi torpağımızdır, biz bunu, bu həqiqətləri bütün dünyaya çatdırırıq. Bir çox elmi əsərlər, kitablar nəşr edilib, bir çox tədbirlər keçirilib. Biz tarixi həqiqətləri çatdırmalıyıq və çatdırırıq. Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olması artıq heç kimdə şübhə doğurmur. Hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağda mövcud olan kriminal, qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq".

Bütün bu əldə olunanlar Azərbaycanın prinsipial mövqeyindən, ardıcıl və məqsədli fəaliyyətindən qaynaqlanır. "Əminəm ki, biz ardıcıl siyasət aparmaqla, istədiyimizə nail olacağıq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik", - deyən Azərbaycan Prezident əminliyini ifadə edib: "Həm tarixi həqiqətlər, hüquqi baza, BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər təşkilatların qərar və qətnamələri, bizim iqtisadi gücümüz, hərbi gücümüz və bölgədə mövcud olan real vəziyyət bunu deməyə əsas verir".

## ÖLKƏMİZDƏ HÖKM SÜRƏN SABİTLİK, XALQ-İQTİDAR BİRLİYİ UĞURLARIN ƏLDƏ OLUNMASINDA ƏSASDIR

Cənab Prezident mərasimdə çıxışı zamanı keçən Ramazan ayından ötən dövr ərzində Azərbaycanda dinamik inkişafın davam etdirildiyini, bir çox önəmli hadisələrin baş verdiyini də diqqətə çatdırıb. Qeyd edib ki, bir çox sahələrdə Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər yenilik, yeni dinamika və yeni yanaşma gətirir: "Keçənilki məclisdən ötən dövr ərzində, bir neçə önəmli hadisəni qeyd etmək istərdim. Bu hadisələr, doğrudan da, tarixi xarakter daşıyır. Onlardan biri Azərbaycanı Avrasiyanın nəqliyyat mərkəzinə çevirməyimizdir. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı Bakıda təntənəli şəkildə qeyd edildi. Bu il isə biz Xəzər dənizinin ən böyük ticarət limanının açılışını qeyd etdik. Beləliklə, ölkə qarşısında nəqliyyat sahəsində duran məsələlərin böyük hissəsini həll etmiş olduq. Bu tarixi layihələr bundan sonra uzun illər Azərbaycanın uğurlu inkişafını təmin edəcək. Keçən ay Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edilməsindən bir gün sonra "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı oldu. Bu da böyük tarixi nailiyyətdir, tarixi layihədir. Bu layihə bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək".

Ölkə başçısı bir neçə gündən sonra Türkiyənin Əskişəhər şəhərində TANAP-ın rəsmi açılışı olacağını da diqqətə çatdırıb. Bütün bunlar Azərbaycanın tarixi uğurlarıdır. Ölkəmizdə hökm sürən sabitlik və xalq-iqtidar birliyi bu uğurların əldə olunmasında əsasdır.

Bəli, qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamofobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. "İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır" - deyən Azərbaycan Prezidenti bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: "Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk".

Bəli, həqiqətən də, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan həqiqətlərinin dünyada təbliğinə yönələn layihələr

**_Beynəlxalq aləmdə baş verən qloballaşma Azərbaycanın dünya dövlətlərinə inteqrasiya prosesini sürətləndirib. Azərbaycan milli-mənəvi dəyərləri, siyasəti və iqtisadi göstəriciləri ilə dünya ölkələrinə yol açaraq, böyük potensiala malik olduğunu təsdiqləyir. Azərbaycanın suverən, müstəqil ölkə olaraq dinamik inkişafı, onun ən nüfuzlu məmləkət olması ölkəmizi dünya ölkələrinə daha da yaxınlaşdırır._**

Azərbaycanın dünyaya inqenqasiya olunması prosesində Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi olaraq qeyd etməliyik. Fəaliyyətdə olduğu dövr ərzində həyata keçirdiyi irimiqyaslı beynəlxalq və yerli əhəmiyyətli layihələri öz nəticəsini verib. Fondun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünün (İDEA) təsisçisi Leyla xanım Əliyevanın bu kimi layihələrinin icrasında rolu və mövqeyi müstəsnadır. Qeyd etməliyik ki, Leyla xanım Əliyevanın rəhbərlik etdiyi Rusiya Azərbaycanlı Gənclər Təşkilatı Azərbaycan üçün beynəlxalq mahiyyət kəsb edən layihələrin icrasına nail olub. Azərbaycan mədəniyyətinin xaricdə təbliği ilə bağlı çox ciddi işlər görərək, Azərbaycanın xaricdə həyata keçirdiyi bütün ictimai və mədəni layihələri dəstəkləyir. Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanla bağlı olan inkişafın bütün sahələri haqqında ətraflı informasiya təqdim edərək, həqiqətləri dünya ictimaiyyətinə çatdırır. Ümummilli əhəmiyyətli məsələləri daim diqqətdə saxlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv informasiyanın da dünya ictimaiyyətinə çatdırılması məsələsinə xüsusi diqqət yetirir. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycan Gənclər Təşkilatının sədri Leyla Əliyevanın gənc olmasına baxmayaraq, gördüyü işlər miqyas baxımından əhatəli və çoxşaxəlidir. Müxtəlif sahələri əhatə edən bu fəaliyyət təhsil, elm və mədəniyyət, sağlam həyat tərzi və idman, iqtisadiyyat, biznes və sahibkarlıq, beynəlxalq əməkdaşlıq və gənclərlə iş kimi sahələrdə yüksək nəticələr verib.

Əməli fəaliyyəti sahəsində Leyla Əliyevanın tərcümeyi-halında nail olduğu uğurlar və fəaliyyət daha aydın görünür. Belə ki, 3 iyul 1984-cü ildə anadan olan Leyla Əliyeva orta məktəbi bitirdikdən sonra Avropa Biznes Məktəbinə (ESB) daxil olub. İsveçrə və Böyük Britaniyada təhsil aldıqdan sonra 2006-2008-ci illərdə Rusiyada Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda politologiya fakültəsində dünya siyasəti üzrə magistr təhsili alıb. Tələbilik illərindən başlayaraq Leyla xanım Əliyeva ictimai fəaliyyət ilə məşğul olmağa başlayıb. 10 may 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəridir. Elə həmin il dekabrın 19-da Moskvada "Baku" jurnalını təsis edib. 2008-ci il mayın 8-dən start götürmüş "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarıdır. 2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş koordinatoru vəzifəsində çalışır. 2009-cu il aprelin 18-də Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri vəzifəsinə seçilib. 2010-ci ilə qədər MQİMO-da Azərbaycanlılar Klubunun sədri olub. 2011-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti vəzifəsini icra edir.

## "MƏN ONU SƏHV ETMƏYƏN VƏ HƏR ZAMAN ÇƏTİN VƏZİYYƏTDƏN ÇIXIŞ YOLU TAPAN BİR ŞƏXSİYYƏT KİMİ TANIMIŞAM"

Bu xronoloji ardıcıllıqda tarixə yazılan sətirlər onun genişmiqyaslı fəaliyyətinin sətirləridir. Sözsüz ki, bu nailiyyətlər Onun boy atdığı mühitlə, formalaşdığı ailəsi ilə sıx bağlı olan amillərdir. Ulu Öndər Heydər Əliyev kimi müdrik Şəxsiyyətin ailəsində böyüyən və bu nəslin təmsilçisi olan Leyla xanım, sözsüz ki, belə prinsipial mövqedə, Azərbaycanın müdafiəsində, onun uğurlu gələcəyinin parlaq olmasında əməli fəaliyyəti ilə seçilməli idi. Müsahibələrinin birində ona verilən "Heydər Əliyev həyatınızda sizə ən çox kömək olan hansı məsləhəti vermişdi" sualına belə cavab verir: "Mən indi başa düşürəm ki, nə qədər böyük bir İnsana yaxın olmuşam və nə qədər böyük bir İnsanla söhbətlərim olub. Hətta Onunla beş dəqiqə söhbət edənlər belə Ondan çox qiymətli dərs ala bilirdilər. Amma mən Onu hər gün görürdüm. Bu, heç nə ilə müqayisə olunmayacaq böyük təcrübə idi. Ən təəccüblüsü də bu idi. O, heç vaxt sənin nə etməli olduğunu demirdi, istəyirdi ki, sən həmişə özün qərar qəbul edəsən. Mən Onu səhv etməyən və hər zaman çətin vəziyyətdən çıxış yolu tapan bir Şəxsiyyət kimi tanımışam. Onun üçün qeyri-mümkün heç nə olmamışdır. Buna görə də, düşünürəm ki, nəyəsə inanırsan və nəyisə çox arzulayırsansa, ona nail olacaqsan". Elə Leyla xanım da hər bir işin mümkünlüyünü bu ailədə əxz edib. "Sizin üçün "mümkün deyil" anlayışı mövcuddurmu" sualını cavablandırarkən belə deyir: "Mənim fikrimcə, "xeyr". Çünki nə vaxt ki, "bacarmıram" deyirlər, bu, əslində, "lazımi qədər istəmirəm" deməkdir. Yəni bir şeyi kifayət qədər istəyirsənsə, istədiyinə inanırsansa, çox iş görmək mümkündür. Vacib olanı isə gördüyün işin, həqiqətən, faydalı olmasıdır. Dərəcəsindən asılı olmayaraq, müsbət nəticəni, işinin fayda verdiyini gördükdə, daha çox iş görmək istəyirsən".




*Leyla Əliyeva: "... müsbət nəticəni, işinin fayda verdiyini gördükdə daha çox iş görmək istəyirsən"*

Bəli, Leyla xanım görmək istədiyini, aldığı həyat dərsini sonrakı fəaliyyətində və əməlində göstərdi. Bu gün Rusiyanın azərbaycanlı gənclərinin təşkilatlanmasında, Leyla Əliyevanın əməyi müstəsnadır. Azərbaycanın sülhsevər, humanist, dini tolerantlığa hörmətlə yanaşan, milli-mənəvi dəyərləri qoruyan bir xalq olduğunu Rusiyada nümayiş etdirir.

RAGT yarandığı gündən özünü müasir cəmiyyətin işgüzar və lazımlı strukturu kimi təqdim edir. RAGT fəaliyyət göstərdiyi zamandan ucsuz-bucaqsız Rusiya məkanında özünə imic yaradıb. Hazırda RAGT ictimai həyatın bütün sahələrində gənclər arasında qarşılıqlı münasibətlərin, ənənəvi Rusiya-Azərbaycan dostluq əlaqələrinin gələcək inkişafının əhəmiyyətli və lazımlı vasitəsinə çevrilib. Rusiyanın bir sıra şəhərlərində azərbaycanlı gənclər klubları fəaliyyətdədir. Moskvada, Sankt-Peterburqda, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və digər regionlarda yerləşən təşkilatlar gənclərin həyatının bütün istiqamətlərini - idman, səhiyyə, təhsil və mədəniyyəti əhatə edir. RAGT sağlamlığa və sağlam həyat tərzinə böyük diqqət ayırır. Məlum olduğu kimi, artıq bir neçə ildir keçirilən "Qanının milləti yoxdur" aksiyası çərçivəsində qurumun könüllüləri ehtiyacı olan bütün şəxslərə təmənnasız qan verirlər. Bu aksiya təkcə Moskvanı deyil, RF-nin regionlarını da əhatə edir. RAGT, həmçinin, "Sağlamlığına əmin ol - xəstəliyə "YOX" de" aksiyası da təşkil edir. Bu aksiya çərçivəsində bütün arzu edənlər pulsuz müayinə olunurlar. Qurumun Birləşmiş Millətlər Təşkilatının İÇV/QİÇS üzrə birgə proqramı olan UNAİDS-lə müştərək layihəsi çərçivəsində RAGT-ın fəalları universitet və məktəblərdə QİÇS-ə dair maarifləndirmə işləri aparır, narkotiklərin, tütünün zərərindən söz açır, habelə, müvafiq leksiyalarla regionları dolaşırlar.

Bu gün RAGT-ın fəaliyyəti və onun rəhbəri Leyla Əliyevanın təşkilatçılıq istedadı yüksək qiymətləndirilir. Qurum sivilizasiyaların və mədəniyyətlərin yaxınlaşmasına, beynəlxalq gənclər dialoquna, habelə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə müsbət töhfələrini verir. Hər bir işin əsasında ən əsas səmimi, saf və insani münasibətlər dayanır. Leyla xanım müsahibələrinin birində belə deyir: "Bizim vəzifəmiz azərbaycanlı gənclərin rusiyalı yaşıdları ilə həmişə mehriban münasibətdə olmasıdır. Bizim Vətənini sevən çox ağıllı və istedadlı gənclərimiz var. Hesab edirəm ki, Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin saxlanması və möhkəmlənməsinə verilən töhfə RAGT-nin Azərbaycan və Rusiyanın qarşılıqlı münasibətlərinə əsas töhfəsidir".

Azərbaycanı kənarda dövlət olaraq yaşatmaq, onun milli-mənəvi dəyərlərini təbliğ etmək, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini, xalqımızın qəhrəmanlıq tarixini, onun coğrafi-ərazisini tanıtmaq baxımından həyata keçidiyi layihələr də əhəmiyyətlidir. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardımçı olan nümayəndəlik Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında bir vasitəçi və ötürücüdür. "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünya ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirlər keçirilir. Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" rep üslubunda yazılmış mahnı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bir vasitə oldu. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Koreya dilində Xocalı soyqırımı haqqında sayt fəaliyyət göstərir. Saytda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, 1992-ci ilin fevralında Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində mülki əhaliyə qarşı törətdiyi soyqırımına aid məlumatlar, foto və videomateriallar yerləşdirilib. "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində görülmüş işlər nəticəsində dünyanın bir sıra ölkələrində və ABŞ-ın ştatlarında Xocalı qətliamı soyqırımı kimi tanınıb. Eyni zamanda, faciə qurbanlarının xatirəsinə abidələr ucaldılıb və müxtəlif tədbirlər keçirilib. Bu istiqamətdə tədbirlər davam etdirilir. Artıq dünyada insanlar həqiqəti yalandan ayırmağı bacarır.

## TƏMİZ ƏTRAF MÜHİT TƏMİZ VƏ SAF CƏMİYYƏTDƏN BAŞLAYIR

Leyla xanımın layihələri sırasında gənclərin yeni qlobal ekoloji kampaniyası olan İDEA-nı, xüsusilə, qeyd etmək lazımdır. İDEA ətraf mühit kampaniyası regionda ətraf mühit məsələləri ilə məşğul olan ən böyük təşkilatdır. Bu kampaniya çərçivəsində BMT İnkişaf Proqramı ilə saziş imzalanıb, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilib. Müasir dövrümüzdə ekologiya və ətraf mühitin qorunması vacib məsələlərdən olduğundan, ekoloji problemlərin nəticələri diqqətdədir. Leyla xanım Əliyevanın, müsahibələrinin birində dediyi kimi, biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub- saxlanmasına birgə töhfə verməliyik. İDEA kampaniyası artıq bir sıra ekoloji təşkilatlar tərəfindən dəstəklənib. İDEA xətti ilə həyata keçirilən tədbirlərdə gənclərin və tələbələrin, demək olar ki, bütün iri təşkilatları iştirak edir. Bu, "Bir planet - bir gələcək" devizini bir daha təsdiq edir. İDEA Azərbaycanda "böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən edib. IDEA İctimai Birliyinin təşkilatçılığı ilə "Bizim həyət" layihəsi reallaşıb. Layihənin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Leyla xanım Əliyeva, çıxışlarının birində bildirib ki, bu məsələləri hələ sinif otaqlarından tədris etmək lazımdır. Təbii ki, təmiz ətraf mühit təmiz və saf cəmiyyətdən başlayır. Bu baxımdan, insanlara belə fikirləri aşılamaq lazımdır.

2015-ci il oktyabrın 20-də Rusiya Federasiyasının "Puşkin" medalı ilə təltif edilib. Həmin il Rusiya Prezidenti Vladimir Putin tərəfindən "Puşkin" medalı ilə təltif olunub. 2016-cı il sentyabrın 28-də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasının qərarı ilə bu ali məktəbin "Xidmətlərə görə" medalına layiq görülüb.

**_Nəzakət ƏLƏDDİNQIZI_**





# Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib

İyunun 30-da Yeni Azərbaycan Partiyasının (YAP) rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov müşavirənin qarşıda duran vəzifələrə həsr olunduğunu bildirib. Bu tədbirin 11 aprel prezident seçkilərindən sonra keçirilən ilk müşavirə olduğunu deyən Əli Əhmədov qeyd edib ki, prezident seçkiləri kampaniyasında partiyanın yerli strukturları yüksək fəallıq göstəriblər. Seçki kampaniyasının bütün mərhələlərində partiyamız və onun bütün fəalları, eləcə də gənclər xüsusilə fərqləniblər. O, Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçki kampaniyasında partiyamızın üzvlərinin aktiv iştirakını yüksək dəyərləndirdiyini deyib və buna görə də dövlət başçısının təşəkkürünü YAP fəallarına, rayon və şəhər təşkilatlarına çatdırıb.

"Seçki kampaniyası dövründə ictimai rəy cənab İlham Əliyevin qələbə qazanacağını şərtləndirirdi. Çünki son 15 ildə qazanılan böyük nailiyyətlər partiyamızın sədri, dövlət başçısı İlham Əliyevin xalqımız tərəfindən birmənalı olaraq dəstəkləndiyini özündə ehtiva edirdi. Buna görə də 11 aprel prezident seçkilərində ölkə vətəndaşları bir daha Heydər Əliyev siyasətinə və bu siyasəti uğurla davam etdirən cənab İlham Əliyevə səs verdi", - deyən YAP sədrinin müavini söyləyib ki, qarşıdakı 7 il ərzində də Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam edəcək və ölkəmizə yeni-yeni nailiyyətlər qazandıracaq. Növbəti 7 il ərzində Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi daha da güclənəcək, iqtisadiyyatımız daha da inkişaf edəcək və əhalinin rifahı yüksələcək.

Bu ilin Azərbaycan üçün əlamətdar hadisələrlə zəngin olduğunu deyən Əli Əhmədov Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin qeyd olunmasını mühüm hadisə kimi səciyyələndirib. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi parad isə dövlətimizin və ordumuzun gücünü nümayiş etdirdi.

Seçkilərin hər bir siyasi partiyanın fəaliyyətinin əsasını təşkil etdiyini deyən Əli Əhmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası da hər bir seçkiyə daim yüksək məsuliyyətlə yanaşır. Çünki siyasi partiyaların əsas vəzifəsi seçkilərdə iştirak etmək və uğur qazanmaqdır.

Ölkəmizdə 2019-cu ildə bələdiyyə, 2020-ci ildə isə parlament seçkilərinin keçiriləcəyini diqqətə çatdıran YAP sədrinin müavini partiyamızın bu seçki kampaniyalarında da yüksək fəallıq və uğurlu nəticə göstərəcəyinə əminliyini ifadə edib.

Müşavirədə qarşıda duran vəzifələrlə əlaqədar partiyanın yerli strukturlarına tövsiyə və tapşırıqlar verilib.

# Leyla Əliyevanın kitabı Londonda nəşr olunub




Gənc Azərbaycan şairi Leyla Əliyevanın "The World Dissolves like a Dream" ("Dünya yuxutək əriyir") kitabı Londonda işıq üzü görüb. Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və təbliği istiqamətində Tərcümə Mərkəzi tərəfindən ərsəyə gətirilmiş kitab Böyük Britaniyanın "Hertfordşir Press LTD" nəşriyyatında çap edilib.

Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, kitaba daxil edilmiş 130 şeiri ingilis dilinə tanınmış ingilis şair və tərcüməçiləri Karolina Valton və Anna Mariya Cekson çevirib. Nəşrin redaktoru Karolina Valtondur.

# Fransanın "DNA" qəzetində Azərbaycanla bağlı məqalə dərc olunub


Entre Europe et Asie, l'Azerbaïdjan

Une jeune république du Caucase fête ses 100 ans

Fransanın Elzas regionunun "DNA" qəzetində "Qafqazın gənc respublikası 100 illiyini qeyd edir" adlı məqalə dərc olunub. Müəllif Jerar Kardon Avropa və Asiya arasında körpü rolunu oynayan ölkəmizdə hökm sürən sabitlikdən, təbii sərvətlərindən, onların rasional şəkildə ölkəmizin sənaye və texnoloji infrastrukturunun inkişafına sərf edilməsindən yazıb.

Azərbaycan və İsrail arasındakı ikitərəfli əlaqələrdən bəhs edib, dini tolerantlıqdan, müxtəlif etnik qrupların və dinlərin nümayəndələrinin ölkəmizdə mehriban ailə kimi birgə yaşamasına toxunub. Azərbaycan dünyəviliyindən, bir çox Avropa ölkələrindən əvvəl qadınlara səsvermə hüququ verilməsindən danışıb. Azərbaycan ərazilərinin işğalından söz açıb. Müəllif Fransanın Elzas regionu ilə ölkəmizin eyni tale yaşamasından söz açaraq onları müqayisə edib.

# Seymur Orucov: "Azərbaycan polisi dünya dövlətlərinə nümunədir"



"Ümumiyyətlə təhlükəsizlik dövlətin onurğa sütunudur. Bu gün bizim onurğa sütunumuz çox sağlamdır. Azərbaycan polisinin maddi-texniki bazası, kəmiyyəti, keyfiyyəti, psixoloji göstəriciləri ən yüksək səviyyədədir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri, Partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov deyib.

Sədrin sözlərinə görə, Azərbaycanda keçirilən ən iri miqyaslı təhlükəsizlik tədbirlərinin həyata keçirilməsində, onun təşkil olunmasında Azərbaycan polisi nümunəvi işlər nümayiş etdirib: "Polislərimiz cənab Prezident İlham Əliyevin hər zaman diqqətində olublar. İstər onların maddi-texniki təminatının gücləndirilməsində, istərsə də sosial məsələlərin həllində dövlət başçısının çox mühüm rolu olub. Azərbaycan polisi hər zaman dövlətin və dövlətçiliyin yanındadır. Polislərimiz dövlətin inkişafı, təhlükəsizliyi üçün əlindən gələni edir. Bunun sosial tərəfi də çox güclüdür. Məsələn, yolu keçə bilməyən yaşlı qocalara və s. qədər diqqətdə olan bizim şəxsi heyətimiz vardır. Biz Azərbaycan Polis günü münasibətilə onları səmimi qəlbdən təbrik edirik. Azərbaycan polisi bir çox dünya dövlətlərinə nümunədir".

# Bolqarıstan televiziyası Ermənistanın təcavüzündən bəhs edən veriliş yayımlayıb

*Verilişə görə Bolqarıstan erməniləri jurnalistə və televiziyaya hücuma keçib, təhdidlərə başlayıblar*



Bolqarıstanın BTV televiziya kanalında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən bəhs edən geniş veriliş yayımlanıb. SİA xəbər verir ki, verilişdə qoşunların təmas xəttindəki vəziyyət, erməni vəhşiliyi, Xocalı soyqırımı və digər məqamlar, o cümlədən münaqişə ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verilir. Qeyd edək ki, Bolqarıstan erməniləri bu verilişə görə onu hazırlayan jurnalistə və BTV televiziyasına qarşı hücuma keçib, təhdidlərə başlayıblar.





# Bakıda Dayanıqlı İnkişaf Məqsədlərinin milliləşdirilməsi və prioritetləşdirilməsi üzrə seminar keçirilir





***İyulun 2-də Bakıda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) milliləşdirilməsi və prioritetləşdirilməsi üzrə seminar işə başlayıb.***

AZƏRTAC xəbər verir ki, tədbiri açan Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov deyib ki, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı öhdəlikləri layiqincə yerinə yetirir. Bununla əlaqədar ölkəmizdə Əlaqələndirmə Şurası yaradılıb və bu Şura müvafiq hökumət qurumlarının səylərini əlaqələndirir. Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı maarifləndirmə işləri aparılıb. Azərbaycan ictimaiyyəti artıq Dayanıqlı İnkişaf Məqsədlərinə dair hədəflər barədə məlumatlıdır. Qısa müddət ərzində ölkəmizdə bu istiqamətdə 8 dövlət proqramı, 31 strategiya, 25-dən çox normativ hüquqi akt araşdırılıb və prioritetlərin müəyyənləşdirilməsi ilə bağlı işlər görülüb. Azərbaycan prioritet olaraq 17 məqsədi, 107 hədəfi və 150 göstəricini özü üçün seçib. Hökumətimizin apardığı fəaliyyət nəticəsində qarşıya qoyulan məqsədlərə nail olunacaq və Azərbaycan BMT-nin bu qlobal layihəsinin həyata keçirilməsinə öz töhfəsini verəcək. İnanıram ki, 2030-cu ildə dünya daha ədalətli, insanların hazırda qarşılaşdıqları problemlərin həllini tapacağı bir dünya olacaq.

BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai seminarın təşkilinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan regionda BMT-nin MAPS Missiyasını (Aktuallaşdırma, Sürətləndirmə və Siyasətə Dəstək) qəbul edən ilk dövlətdir. 2030-cu ilə qədər olan gündəlik BMT-yə daxil olan dövlətlər tərəfindən qəbul edilib. Gündəliyə daxil prioritetlər planetimizdə sülh və tərəfdaşlığın inkişafına öz töhfəsini verəcək. Bu işdə də hökumətlər və vətəndaş cəmiyyətləri birgə işləməlidirlər. Tədbir "Azərbaycanın ehtiyaclarına cavab verən siyasətlərin təşviq olunması" və "DİMlərin prioritetləşdirilməsi: reallıq yoxlaması" mövzularında plenar iclaslarla davam edib. Seminar iyulun 4-də başa çatacaq.

## DSX əməkdaşları Astarada narkotik maddə qaçaqmalçılığı ilə məşğul olan şəxsləri saxlayıblar

***Mütəşəkkil cinayətkar qrupların külli miqdarda narkotik vasitələri dövlət sərhədini pozmaqla qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirməsinə qarşı Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən tədbirlər davam etdirilir.***



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyunun 30-da keçirilmiş əməliyyat tədbiri nəticəsində xidmət əməkdaşları Astara şəhər sakini 1998-ci il təvəllüdlü Əhmədov İbrahim Zakir oğlunu saxlayıblar. Astara rayonu ərazisində saxlanılan həmin şəxsdən 2 kiloqram heroin və 568 qram metofitamin müəyyənləşdirilərək götürülüb. Fakt üzrə keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Astarada narkotik vasitəni qəbul edərək sifarişçiyə çatdırmalı olan Astara şəhər sakini 1987-ci il təvəllüdlü Abdullayeva Aynur Mahir qızı saxlanılıb və narkotik vasitənin sifarişçisinin də şəxsiyyəti müəyyən olunub.

Sumqayıt şəhərində narkotik vasitənin sifarişçisi, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə məşğul olduğuna görə əvvəllər məhkum olunmuş Corat qəsəbə sakini 1966-cı il təvəllüdlü Ağayeva Xalidə İlyas qızı iyulun 1-də əməliyyat-axtarış tədbirinin davamı olaraq Daxili İşlər Nazirliyinin Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları ilə birgə saxlanılıb. Saxlanılmış şəxslər barəsində Dövlət Sərhəd Xidmətinin istintaq və təhqiqat idarəsi tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Hazırda cinayətin digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

***Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyulun 2-dək 92 milyon 125 min 615,88 manat, 213 min 577,88 ABŞ dolları, 11 min 636 avro və 5 min rubl vəsait yığılıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.***



Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır. Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# 2040-cı ilədək qlobal qaz istehlakının 90 faizindən çoxu şəhərlərdə formalaşacaq

***2040-cı ilə qədər qlobal qaz istehlakının 90 faizindən çoxu şəhərlərdə formalaşacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Qaz Birliyi (IGU) və "Boston Consulting Group" tərəfindən nəşr olunan "Global Gas Report" hesabatında deyilir.***

Bildirilir ki, inkişaf etməkdə olan ölkələrin mühüm təbii qaz infrastrukturuna sərmayələri ildə 35-55 milyard dollar arasında qiymətləndirilir.

Hesabata görə, 2035-ci ilə qədər qlobal enerji səbətində təbii qazın payı hazırkı 22 faizdən 24 faizədək artması gözlənilir.



"2017-ci ildə qaz tələbatının kəskin artmasına səbəb bazarın likvidliyi, çoxalan LNG bazarı ilə yanaşı, sənayenin üç əsas qolu - xərclərin rəqabət qabiliyyətliliyi, təchizat təhlükəsizliyi və davamlılığıdır. İlkin məlumatlara görə, 2017-ci ildə qlobal qaz istehlakı son 10 ilin maksimumuna çatıb, əvvəlki illə müqayisədə 3,7 faiz səviyyəsində artıb və 5 il əvvəlki artım tempindən iki dəfə çox olub", - deyə hesabatda qeyd edilir.

# Uğurlu büdcə layihəsi xalqımızın rifahına xidmət edir



***Böyük uğurla həyata keçirilən sosial-iqtisadi siyasət, son illərdə Azərbaycanda yaradılmış güclü iqtisadi potensial, belə deməyə əsas verir ki, Azərbaycan hələ uzun illər bu liderlik missiyasını davam etdirəcəkdir. Müasir Azərbaycan iqtisadiyyatının inkişaf xüsusiyyətləri sırasında mühüm məqamlardan biri son illərdə dövlətin düşünülmüş şəkildə iqtisadiyyatın idarə edilməsində rolunun əhəmiyyətli dərəcədə gücləndirilməsi hesab edilə bilər. Bu, özünü, ilk növbədə, dövlət büdcəsinin hazırlanması və qəbulu prosesində təzahür etdirir.***

Son illərdə ölkəmizdə dövlət büdcəsinin cəmiyyətin sosial və iqtisadi inkişafında rolu yüksəlmişdir. Bütövlükdə, dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının, vəzifə və problemlərinin həlli, dövlətin konkret funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitlərinin toplanmasını və istifadəsini təmin etməkdir. Bu isə dövlət büdcəsinin tərtibi və icrasına məsuliyyətlə yanaşmağı, büdcə xərclərinin səmərəliliyinin artırılması üçün təkmil mexanizmlərin mövcud olmasını tələb edir ki, bunun da əsasında uğurlu dövlət quruculuğu faktoru dayanır. Bu baxımdan, 2019-cu ilin dövlət büdcəsi ölkənin iqtisadi kursuna, ortamüddətli maliyyə siyasətinə, iqtisadi və sosial inkişaf proqnozlarına və müvafiq dövlət proqramlarına uyğun hazırlanmışdır. Digər tərəfdən, ölkənin iqtisadi inkişafından, neft və qeyri-neft strategiyasının səmərəli nəticələrindən əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. Bu istiqamətdə görülən müsbət işlər, deməyə əsas verir ki, Azərbaycan vətəndaşlarının sosial rifah halı qarşıdakı illərdə daha da yaxşılaşacaq. Habelə, sahibkarlığın inkişafı və bu sahəyə göstərilən diqqət və qayğı da artırılacaq ki, bütün bunlar birbaşa dövlətimizin sosial siyasət tendensiyasına önəmli töhfələrini verəcəkdir.

Gələn ilin dövlət büdcəsi Azərbaycanın iqtisadi inkişafını real ifadə edir. Belə ki, ötən illərin dövlət büdcələrində də biz bu reallığın şahidlərinə çevrilmişik. Ümumiyyətlə, dünyada və regionda baş verən hadisələr, eyni zamanda, ölkəmizin inkişaf gözləntilərinin nəzərə alınması da təqdirəlayiq hal kimi qiymətləndirilə bilər. Bu, Azərbaycan hökumətinin, bilavasitə ölkə Prezidenti İlham Əliyevin uğurlu büdcə siyasəti həyata keçirdiyini göstərir. Ona görə də, tam əminliklə belə qənaətə gələ bilərik ki, Azərbaycanın qarşıdakı illərdə daha sürətli inkişaf meyilləri əldə edəcəyinə dair proqnozlar özünü doğrultmaqdadır.

Xüsusilə, büdcə layihəsinin sosialyönümlü olması, sosial xərclərin gələn ilin büdcə layihəsində üstünlük təşkil etməsi Möhtərəm Prezidentimizin sosial sahənin prioritetliyinin təmin olunması ilə bağlı verdiyi tapşırıqlara əməl olunmasının təsdiqidir. Bu, həm də onu deməyə əsas verir ki, gələn ilin dövlət büdcəsi layihəsi tərtib olunarkən, əhalinin rifah halının və sosial müdafiəsinin daha da gücləndirilməsi əsas məqsəd kimi qarşıya qoyulub.

## Hər bir vətəndaşın, onun ailə üzvlərinin həyatı və rifahı naminə layihələrə üstünlük verilir!

Beləliklə, nəticəyə gələ bilərik ki, sosial dövlətin qurulmasının əsas şərtlərindən biri isə həmin dövlətdə sosial ədalətin səviyyəsi sayılır. Heç də təsadüfi deyildir ki, dövlətimizin əsas prinsiplərdən biri kimi sosial ədalət prinsipi götürülür, sosialyönümlü iqtisadiyyata malik olan dövlətlərdə dövlət vergi, sosial və məqsədli yardım mexanizmlərindən istifadə edərək, cəmiyyətin ən imkanlı təbəqələrinin imkansızlara yardımını və onların yaşayışı üçün minimum həyat şəraitinin təmin olunmasını təşkil edir. Belə cəmiyyətlərdə sosial sabitliyə nail olmaq, humanizm və ədalət prinsiplərini qorumaq dövlətin siyasətinin əsas istiqamətlərindəndir.

Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır. Hesab edirəm ki, bu iki əsas amil Azərbaycanda artıq çox güclü dayaqlara malikdir. Həm sosial, həm iqtisadi, həm də xarici siyasətlə bağlı atdığımız addımlar bizə böyük uğur gətirib və dünyada Azərbaycana çox böyük rəğbət var".

Həqiqətən də, Azərbaycan dövləti bir sosial dövlət olaraq öz vətəndaşlarının sosial, iqtisadi, hüquqi və mənəvi azadlıqlarını təmin edir, cəmiyyət üzvləri arasında sosial bərabərsizliyi minimuma endirməyə çalışır, sosial ədalətə, sosial sülhə və sosial əməkdaşlığa söykənən yeni münasibətlərin yaranmasına səy göstərir və buna nail olur. Böyük uğurla həyata keçirilən sosial-iqtisadi siyasət, son illərdə Azərbaycanda yaradılmış güclü iqtisadi potensial belə deməyə əsas verir ki, Azərbaycan hələ uzun illər bu liderlik missiyasını davam etdirəcəkdir.

***RƏFİQƏ KAMALQIZI***

# Sərhədçilər Cəlilabad rayon sakininin həyatını xilas ediblər



Dövlət Sərhəd Xidmətinin hərbi hissələri və bölmələri tərəfindən sərhədyanı ərazilərdə yaşayan əhaliyə hər zaman mümkün köməklik göstərilmiş və müxtəlif problemlərinin həllinə dəstək verilmişdir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən "Səs" qəzetinə verilən məlumata görə, Cəlilabad rayonunda yerli sakinin həyatını sərhədçilərin köməkliyi ilə xilas etmək mümkün olmuşdur. Belə ki, Cəlilabad rayonu ərazisində Cəlilabad-Göytəpə yolunda sürücünün idarəetməni itirməsi və avtomobilin yoldan çıxaraq, ağaca çırpılması nəticəsində, yol-nəqliyyat hadisəsi baş vermişdir. Bu zaman avtomobil yoldan keçən Göytəpə şəhər sakini 1984-cü il təvəllüdlü Əliyev Ruslan Əlisəfa oğlunu vurmuş, nəticədə, piyada ciddi xəsarət almışdır.

Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının Göytəpə sərhəd dəstəsinin "Ambulance" tibb avtomobili hərbi hissəyə qayıdarkən, yol-qəza hadisəsinin baş verməsini müşahidə etmiş, dərhal hərbi həkim tərəfindən ilkin təcili tibbi yardım göstərilmiş və piyada Cəlilabad rayon mərkəzi xəstəxanasına çatdırılmışdır. Nəticədə, R.Əliyevin həyatını xilas etmək mümkün olmuşdur.

***ZÜMRÜD***

# Yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib



İyulun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən dövlət qeydiyyatına alınan bir qrup dini icmaya şəhadətnamələr təqdim edilib. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib. Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Dinə dövlət qayğısından bəhs edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də sürətli inkişafa nail olunub, milli-mənəvi dəyərlərimizin və tolerantlıq mühitinin qorunub-saxlanılması istiqamətində mühüm nailiyyətlərə imza atılıb. Bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdıran sədrin birinci müavini ölkəmizdə uğurla gerçəkləşdirilən dövlət-din münasibətləri konsepsiyası nəticəsində Azərbaycanda yüksək tolerantlıq mühiti və dinlərarası harmoniyanın hökm sürdüyünü qeyd edib. Səyyad Salahlı bu yaxınlarda dövlətimizin başçısının Sərəncamı ilə dini konfessiyaların dəstəklənməsi və fəaliyyətlərinin ahəngdarlığının təmin edilməsi məqsədilə müsəlman və qeyri-müsəlman dini icmalara maliyyə yardımının ayrılmasını buna bariz nümunələrdən biri kimi dəyərləndirib.

O əlavə edib ki, son illərdə icmaların maarifləndirici layihələrə cəlb edilməsi onların cəmiyyətdə daha aktiv fəaliyyətini təmin edib. Din xadimləri dini maarifləndirmə işinin aparılması, həmçinin cəmiyyətdə dini radikalizm meyillərinin qarşısının alınmasında fəallıq nümayiş etdirirlər. Dövlət Komitəsi ilə sıx əməkdaşlığın zəruriliyini önə çəkən sədrin birinci müavini bu istiqamətdə birgə fəaliyyətin davam etdiriləcəyini vurğulayıb. Sonra 26 dini quruma qeydiyyat şəhadətnamələri təqdim edilib. Lənkəran rayonu Boladi kəndi Seyidoba məhəllə məscidi dini icmasının sədri Zamin Məmmədov dini icmalarla sıx əlaqələrin qurulmasının, onların qayğı ilə əhatə olunmasının diqqətəlayiq olduğunu bildirib.

Qeyd edək ki, dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan sonra 835 dini qurum dövlət qeydiyyatından keçib. Konfessional baxımdan onların 804-ü İslam, 31-i isə qeyri-islam (Xristian - 20; Yəhudi - 8; Krişna - 1; Bəhai - 2) təmayüllüdür.

# Səyyar "ASAN xidmət" davam edir




***"ASAN xidmət" iyunun 4-dən iyulun 3-dək Qaxda, iyunun 19-dan iyulun 3-dək Daşkəsən və Tərtərdə, iyunun 19-dan iyulun 7-dək Lerikdə, iyunun 25-dən iyulun 4-dək Hökməli qəsəbəsində, iyunun 27-dən iyulun 26-dək Kürdəmir və Lənkəranda, iyulun 2-dən 31-dək Şəki və Qusarda, iyulun 4-dən 18-dək Pirallahıda, iyulun 6-dan 30-dək Şamaxıda, iyulun 7-dən 31-dək isə Gədəbəy və Yevlaxda vətəndaşlara səyyar formada xidmət göstərəcək.***

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildiriblər ki, səyyar şəkildə göstərilən xidmətlər Azərbaycan Respublikasının Ədliyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunur.

Bu xidmətlərə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların, fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi daxildir.

# Bolqarıstan mediasından ermənilərə tərs sillə..

## *Yaxud, bTV-nin Dağlıq Qarabağla bağlı reportajı erməniləri niyə bu qədər narahat edir?*

Bolqarıstan mediasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü haqqında geniş materiallar dərc edilib, reportajlar yayımlanıb. Bu media materiallarında Ermənistanın Azərbaycanın torpaqlarını işğal etməsi faktına xüsusi diqqət çəkilib və ölkəmizin əhalisinin bir hissəsinin qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olan ədalətsiz müharibənin ağır nəticələri qeyd edilir.

Əlbəttə ki, belə bir həqiqətlərin Bolqarıstan mətbuatında yayılması uzun illərdir ermənilərin apardıqları "məsumluq" təbliğatına çox ciddi zərbə hesab edilməkdədir. Çünki, Bolqarıstan dünənə qədər Avropa İttifaqına sədrlik etmiş qitənin sürətli inkişaf edən ölkələrindən biridir və bu ölkənin ən böyük media qruplarından biri olan bTV-nin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü haqqında geniş reportaj yayması həm Bolqarıstan, həm də Avropa ictimaiyyətinin erməni şovinizmi ilə yaxından tanış olmasına şərait yaradır. Bu səbəbdən də, verilişlərə və yayılan materiallara görə Bolqarıstan erməniləri bTV media qrupunun jurnalistinə və televiziyaya qarşı hücuma keçiblər. Onları təhdid edirlər və xislətlərinə uyğun olaraq bütün resurslarını ortaya qoyaraq həqiqətin üzərindən xətt çəkməyə çalışırlar.

Ümumiyyətlə, ermənilərin Bolqarıstanın bTV media qrupunun yaydığı reportaja görə bu qədər böyük təlaş içində olması da səbəbsiz deyildir.

Birinci səbəb bTV-nin özünün nüfuzu və geniş auditoriyası ilə bağlıdır. Yəni, 2000-ci ildə yaradılmış və Bolqarıstanın ilk milli özəl televiziyası olan bTV geniş fəaliyyət diapazonu olan bir media qrupudur. Buraya televiziya, radio, kanallar, dijital platformalar və film çəkilişləri studioları daxildir.

Geniş auditoriyası və Bolqarıstanın media bazarının ən aparıcı üzvü olan, Mərkəzi Avropa Media Qurumlarına daxil olan bTV Çexi-




yada, Rumıniyada, Slovakiyada, Sloveniyada, Xorvatiyada və başqa ölkələrdə fasiləsiz yayımlanır. Məhz, bu gün də bTV-nin yaydığı bütün informasiyalar, materiallar, reportajlar geniş auditoriya tərəfindən izlənilir, yüksək qiymətləndirilir. Əlbəttə, bütün bunlara görə ermənilər heç bir halda istəmirlər ki, Cənub-Şərqi və Mərkəzi Avropa ictimaiyyəti Ermənistanın Azərbaycana hərbi təcavüzü, onun işğalçılıq və vəhşilik əməlləri haqqında məlumat əldə etsin.

Məhz, ikinci səbəb ondan qaynaqlanır ki, ermənilər uzun illərdir Avropa ictimaiyyətinə sırımağa çalışdığı yalnış, həqiqətdən kənar informasiyaların, məlumatların ifşa olunacağından qorxurlar. Çünki, onlar bu günə qədər özlərini Cənubi Qafqazda "incidilən, məzlum" xalq kimi təqdim etməyə çalışıblar. Amma bTV-nin reportajından sonra bir daha Avropa ictimaiyyəti biləcək ki, bu, həmin ermənilərdir ki Azərbaycanın torpaqlarını işğal ediblər, əhalisini soyqırımına məruz qoyublar.

Bir daha məlum olacaq ki, bugünkü Ermənistan-Azərbaycan münaqişəsinin dərin tarixi kökləri var. Məhz, əsası XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarına ermənilərin köçürülməsilə qoyulmuş bu proses 1905-1906-cı və 1918-1920-ci illərdə azərbaycanlıların qəddar kütləvi terror və qanlı soyqırıma məruz qalması mərhələlərindən keçib. Sonralar isə sovet dövründə əzəli Azərbaycan torpaqları hesabına orada əsrlər boyu yaşamış azərbaycanlılara qarşı etnik təmizləmənin aparılması yolu ilə indiki Ermənistan Respublikasının sələfi olan Ermənistan SSR yaradılıb və Azərbaycan SSR-in tərkibində onun Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunub. 1987-ci ilin axırlarından o vaxt üçün son olaraq Ermənistan SSR-də qalan 250 minə qədər Azərbaycan əhalisinin planlaşdırılmış qovulmasının başlanması ilə Ermənistan-Azərbaycan münaqişəsinin müasir mərhələsinə təkan verilib. 1988-ci ilin 20 fevral tarixində isə Dağlıq Qarabağ Muxtar Vilayətinin Vilayət Şurasının sessiyasında erməni nümayəndələrinin qəbul etdiyi "DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə verilməsi barədə Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət haqqında" qərarı və 1989-cu il dekabrın 1-də Ermənistan SSR-in Ali Sovetinin indiyəcən ləğv edilməmiş "Ermənistan SSR və Dağlıq Qarabağın yenidən birləşdirilməsi haqqında" qətnaməsi qəbul edilib. DQMV Vilayət Şurasının erməni nümayəndələri və Ermənistan SSR-in atdığı bu addımlar bütün qanun çərçivələrinin birmənalı və kobud şəkildə pozulması deməkdir və nə onların qəbul edilməsi zamanı mövcud olmuş SSRİ Konstitusiyası, nə də hər hansı beynəlxalq normasına uyğun gəlir. Bu qərarlar yalnız və yalnız erməni tərəfinin təcavüzü hüquqi baxımdan rəsmiləşdirmək cəhdləri kimi qiymətləndirilməlidir. Belə qanunsuz davranışa cavab olaraq, Azərbaycan Respublikası tamamilə əsaslandırılmış şəkildə öz suveren hüququndan istifadə edərək, 26 noyabr 1991-ci il tarixində "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" qanun qəbul edib.




1992-1994-cü illərdə daha da gərginləşən hazırkı Ermənistan-Azərbaycan münaqişəsi Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi təcavüzü formasını alıb. Xocalı şəhərinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş işğalı xüsusi qəddarlıqla seçilən faciə kimi XX əsrin bəşəriyyətə qarşı cinayətlərinin qara siyahısına daxil olub ki, orada qoca, qadın və uşaq da daxil olmaqla, 613 dinc sakin vəhşicəsinə qətlə yetirilib. Bunun ardınca 1992-1993-cü illər ərzində Ermənistanın xaricdən dəstəklənən silahlı qüvvələri Azərbaycan ərazisinin beşdən birini təşkil edən Şuşa, Xocalı, Xocavənd, Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları bütövlükdə, Ağdamın rayon mərkəzi daxil olmaqla əksər hissəsi, Füzulinin rayon mərkəzi daxil olmaqla bir qismi və keçmiş DQMV-nin payına düşən indiki Tərtər rayonunun bir hissəsini həmin ərazilərdə yerləşən 890 yaşayış məntəqəsilə birlikdə işğal edərək, oradakı bütün Azərbaycan əhalisini doğma yurd-yuvasından didərgin salıb. Beləliklə, münaqişə nəticəsində təqribən bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib, təqribən 20 min nəfər həlak olub, 50 min yaralanıb, yaxud əlil olub, 5 min itkin düşüb, Azərbaycanın Naxçıvan diyarı isə Ermənistan tərəfindən tətbiq edilmiş blokadaya məruz qalıb...

Aydındır ki, bütün bu həqiqətlərin Avropa ictimaiyyətinin diqqətinə özlərinin sevdikləri və izlədikləri televiziya vasitəsilə çatdırılması nəticəsində ermənilərin illərlə qurduqları təbliğat ifşa olunacaq və iflasa uğrayacaq. Elə bu səbəbdəndir ki, onlar sistemli və düşünülmüş şəkildə bTV-yə və onun jurnalistinə qarşı çirkin təzyiq kampaniyasına başlayıblar. Amma düşünürük ki, ermənilərin bu cəhdləri nəticəsiz qalacaq və həqiqət bir daha Avropa ictimaiyyəti üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ədalətli baxışı təmin edəcək.

# Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən iyulun 2-də Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qisimləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri başlayıb.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərə 20 minədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.

İyulun 6-dək davam edəcək təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqlar yerinə yetiriləcək.









# Azərbaycan Polisi yaranmasının 100-cü ildönümünü qeyd edir

***2 iyul Azərbaycan Polisinin peşə bayramı günüdür. Azərbaycan Polisi builki peşə bayramı günündə həm də yaranmasının 100 illik yubileyini qeyd edir. AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən təntənəli tədbirdən əvvəl daxili işlər naziri, general-polkovnik Ramil Usubovun rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin (DİN) təmsilçiləri Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olunub.***



Sonra DİN-in təmsilçiləri Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanına gedərək "Əbədi məşəl" abidəsini ziyarət ediblər. Azərbaycan Polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında təntənəli mərasim keçirilib. Əvvəlcə mərasim iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş, xidməti borclarını yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əlamətdar yubiley münasibətilə polis orqanlarının şəxsi heyətinə təbrikini çatdırıb.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov ötən 100 ildə Azərbaycan Polisinin keçdiyi şərəfli yol, xüsusən ulu öndər Heydər Əliyevin respublikamıza hər iki rəhbərliyi dövründə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, peşəkar kadr özəyinin yaradılması, həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, struktur dəyişiklikləri, maddi-texniki bazanın möhkəmləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması, şəxsi heyətə ali diqqət və qayğısı barədə geniş məruzə ilə çıxış edib. Nazir asayiş keşikçilərinin şanlı yubileylərini böyük qürur hissi və xidmətdə qazandığı uğurlarla qeyd etdiklərini, bu münasibətlə ünvanladığı təbrikdə Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Polisinin 100 illik əzmkar missiyasına dolğun, keçdiyi şərəfli yola yüksək qiymət verməsinin bütün şəxsi heyətin hədsiz sevincinə, ruh yüksəkliyinə səbəb olduğunu deyib. Ramil Usubov bu günlərdə Azərbaycan Prezidentinin imzaladığı sərəncamlarla 49 əməkdaşın dövlət mükafatlarına, 2 rəhbər vəzifəli şəxsin isə ali xüsusi rütbəyə layiq görüldüyünü vurğulayıb.

Polisin keçdiyi yolun dövlətçiliyimizin tarixi ilə sıx bağlılığını nəzərə alan, tarixi ədalətin bərpasını zəruri sayan və varislik prinsipini rəhbər tutan xalqımızın ümummilli lideri Heydər Əliyevin 20 il öncə - 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-nin Azərbaycan Polisi Günü elan edildiyini deyən daxili işlər naziri bu müdrik qərarın polisin ən yaxşı ənənələrinə, gecəli-gündüzlü gərgin əməyinə, torpaqlarımızın müdafiəsində və xidməti vəzifə borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olanların əziz xatirəsinə ehtiramın əyani təcəssümü olduğunu diqqətə çatdırıb. Cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu illər ərzində daxili işlər orqanlarının inkişaf etdiyi, ictimai asayişin qorunmasında yüksək nəticələr və zəngin təcrübə qazandığı, Azərbaycan milisinin İkinci Dünya müharibəsində böyük qəhrəmanlıqlar göstərdiyi, Ulu Öndərin rəhbərliyi ilə respublikamızın iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar qazandığı 1970-1980-ci illərin Daxili İşlər Nazirliyinin tarixində mühüm mərhələ olduğu qeyd edilib.



Bildirilib ki, məhz həmin dövrdə Ümummilli Lider böyük uzaqgörənliklə daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı ciddi qərarlar qəbul edib. Şəxsi heyətin milli dövlətçilik ideyası ruhunda formalaşmasının nəticəsində 1988-ci ildən başlayaraq, Ermənistanın hərbi təcavüzünə qarşı Vətənin müdafiəsinə ilk olaraq qalxan və uzun müddət rəşadətlə döyüşən yeganə silahlı qüvvə məhz polis, sonralar isə Daxili Qoşun hissələri idi. Həmin döyüşlərdə DİN-in 1695 əməkdaşı və hərbi qulluqçusu şəhid olub, 1710-u yaralanıb. Müstəqillik illərində xidməti vəzifələri yerinə yetirərkən isə 99 əməkdaş həyatını itirib, 2640 nəfər xəsarət alıb. Göstərdikləri fədakarlığa görə daxili işlər orqanlarının 67 əməkdaşına Azərbaycanın Milli Qəhrəmanı adı verilib, 1143 nəfər müxtəlif orden və medallarla təltif olunub.

Ramil Usubov müstəqilliyin ilk illərində respublikamızda yaşanan ictimai-siyasi böhran, hərc-mərclik, özbaşınalıq, insan hüquqlarının kütləvi şəkildə pozulması, torpaqlarımızın işğalı və separatizmin Azərbaycanın bir dövlət kimi mövcudluğunu təhlükə altına alması, onu dağılmaq həddinə gətirməsi, çoxsaylı qanunsuz silahlı dəstələrin əhalidə vahimə və qorxu yaratması, cinayətlərin sayının kəskin artması, kriminogen durumun nəzarətdən çıxması, belə ağır və mürəkkəb vəziyyətdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qurtuluş missiyasını həyata keçirərək qısa müddətdə respublikada möhkəm və dönməz sabitlik yaratmağa nail olması, dövlət çevrilişi və vətəndaş müharibəsinin qarşısının alınması, anarxiyaya son qoyulması, qanunsuz silahlı dəstələrin tərksilah edilməsi, kriminogen durumun nəzarətə götürülməsi ba-

# Azərbaycan Polisi yaranmasının 100-cü ildönümünü qeyd edir

rədə ətraflı danışıb.

Ən yeni tariximizə nəzər salan nazir 2003-cü ilin oktyabrında İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkəmizin inkişafının yeni mərhələsinə qədəm qoyduğunu, lakin həmin illərin də asan olmadığını, yenidən dövlətimizi xaos və anarxiyaya sürükləməyə cəhdlərin göstərildiyini, bu antimilli əməllərin qarşısının Ali Baş Komandanımızın qətiyyəti, möhkəm iradəsi, hüquq-mühafizə orqanlarının yaranmış vəziyyətə operativ müdaxiləsinin təşkili sayəsində alındığını, məhz ictimai asayişin etibarlı qorunmasının nəticəsi olaraq onun rəhbərliyi ilə xalqımız və dövlətimiz üçün çox mühüm olan qlobal layihələrin reallaşdığını məmnunluqla xatırladıb.

Cinayətkarlığa qarşı mübarizədə digər hüquq mühafizə və xüsusi xidmət orqanları ilə birgə qazanılan uğurların mötəbər beynəlxalq təşkilatlar tərəfindən də dəyər-











ləndirildiyi nəzərə çatdırılıb. Məlumat verilib ki, Dünya İqtisadi Forumunun hesabatına əsasən, "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə Azərbaycan Respublikası 2017-ci ildə 21 pillə irəliləyərək 137 ölkə arasında 54-cü, "Təhlükəsizlik" indikatoru üzrə 40-cı, "Mütəşəkkil cinayətkarlıq" indikatoru üzrə 43-cü mövqedə qərarlaşıb.

Bildirilib ki, müasir dövrün çağırış və təhdidləri nəzərə alınmaqla şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılmasına da böyük önəm verilir. Belə ki, son 15 ildə beynəlxalq qurumların təşkil etdiyi forum, müşavirə və treninqlərdə 6 mindən çox əməkdaş iştirak edib, təcrübə mübadiləsi aparılıb. Hər il onlarla gənc müxtəlif ölkələrin Polis akademiyalarına, hüquq universitetlərinə təhsil almağa göndərilir. Müstəqilliyin ilk illərində hüquqşünas ixtisası tələb olunan zabit heyəti vəzifələrinin yalnız 16 faizini müvafiq təhsilli əməkdaşlar təşkil edirdisə, hazırda bu göstərici 100 faizə çatıb, kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların isə təxminən 20 faizi ali təhsillidir.

Nazir Ramil Usubov xidməti vəzifələrin icrasında yaxından köməyinə görə vətəndaşlara, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, hüquq mühafizə, xüsusi xidmət və digər dövlət orqanlarının əməkdaşlarına, Milli Məclisin deputatlarına, kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların rəhbərlərinə və nümayəndələrinə minnətdarlığını bildirib. Həmçinin gənc əməkdaşların formalaşmasında və təcrübə əldə etməsində böyük işlər görən veteranlara təşəkkür ifadə olunaraq, onlara ən xoş arzular çatdırılıb. Daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək dəyərləndirdiyinə görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirən nazir Ramil Usubov əminliklə qeyd edib ki, Azərbaycan Polisi inkişafın və rifahın rəhni olan sabitliyin qorunub saxlanılması, qanunçuluğun, fundamental insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcək, andına sadiq qalaraq Azərbaycan Respublikasına ləyaqətlə xidmət edəcək, dövlətimizin başçısının inam və etimadını hər zaman layiqincə doğrultmağa çalışacaq.

Təntənəli mərasim nazirliyin ayrı-ayrı struktur qurumlarının şəxsi heyətinin, həmçinin xidməti nəqliyyat vasitələrinin və süvarilərin tribuna önündən keçidi ilə başa çatıb.

# Kənd təsərrüfatının inkişafında artım müşahidə olunur

***Neft gəlirlərindən asılılığı minimuma endirmək, qeyri-neft sektorunun inkişafını təmin etmək, ölkənin qeyri-neft məhsulları ixracı potensialını artırmaq və bu sahədə potensialdan daha yüksək səviyyədə istifadə etmək məqsədilə kənd təsərrüfatına xüsusi diqqət yetirilir. Təbii ki, bu diqqət sayəsində kənd təsərrüfatı məhsulları istehsalının ildən-ilə artımı müşahidə olunur və məhz aqrar sahədən gələn gəlirlərdə də özünü büruzə verir.***





Kənd təsərrüfatı məhsullarından gələn gəlirlərin artımı təsdiq edir ki, bu istiqamətdə görülən tədbirlər öz bəhrəsini verməkdədir və bundan sonra daha böyük göstəricilərə ümid etməyə dəyər. Belə ki, 2018-ci ilin yanvar-may ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1770,4 milyon manat təşkil edib ki, bunun da 1462,7 milyon manatı heyvandarlıq, 307,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Bu isə, öz növbəsində, ondan xəbər verir ki, ötən ilin müvafiq dövrü ilə müqaisədə kənd təsərrüfatının inkişafında 8,5 faiz, bitkiçilik üzrə 52 faiz, heyvandarlıq üzrə isə 2,5 faiz artım müşahidə olunur. Kənd təsərrüfatı məhsullarının yığımı başlayıb və artıq iyun ayının 1-nə kimi tarlalardan keçən ilin müvafiq dövrünə nisbətən 4,1 dəfə çox, yəni 71,7 min ton taxıl, keçən ilin müvafiq dövrünə nisbətən 66,6% çox, yəni 135,4 min ton kartof, analoji dövrlə müqaisədə 56,2% çox, yəni 217 min ton tərəvəz, 17,3% çox olmaqla 13,1 min ton meyvə və giləmeyvə, 13 % çox olmaqla 353,2 ton yaşıl çay yarpağı tədarük edilib. Heyvandarlıq sahəsində də artım qeydə alınıb və 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk 5 ayı ərzində diri çəkidə ət istehsalı 3,4 % artaraq, 195,3 min ton həddində olub. Süd və yumurta istehsalı müvafiq olaraq 1,4% artaraq, 829,1 min ton və 0,3% artaraq, 741,8 milyon ədəd təşkil edib.

## Kənd təsərrüfatı naziri sahibkarlıq subyektləri ilə sıx əlaqələrə üstünlük verir

Ərzaq məhsullarının hazırda idxalda əsas yer tutması, bir sözlə, ərzaq məhsullarının idxaldan asılılığı azaldılmalıdır və yerli istehsal daxili tələbatı tam ödəməyə yaxın olmalıdır. Daha dəqiq desək, məhsuldarlıq indikindən azı 2 dəfə yüksək olmalıdır ki, bütün bunlara nail olunsun. Xarici ekspertlər, ələlxüsus da, Dünya Bankı Azərbaycanda kənd təsərrüfatı sahəsində məhsuldarlığın üç dəfə artırılması üçün imkanların mövcudluğunu israrla iddia edir. Xüsusən, ət və süd məhsullarının istehsalında potensialın daha böyük olduğunu həmin qurumun səlahiyyətlisi iddia edərək, bunun mümkünlüyünə inamını da gizlətmir. Azərbaycanda kənd təsərrüfatı üzrə ixrac potensialı dəyərinin 1,1 milyard ABŞ dolları olduğu söylənilib və yalnız aqraq sektor üçün 1,1 milyard dollar ixrac imkanı heç də kiçik rəqəm deyil.

Ölkədə aqrar sektorun, heyvandarlığın, bitkiçiliyin inkişafı, daha böyük məhsuldarlıq əldə edilməsi üçün Kənd Təsərrüfatı Nazirliyi təxirəsalınmaz tədbirlər həyata keçirir. Ələlxüsus, kənd təsərrüfatı naziri İnam Kərimov sahibkarlıq subyektləri ilə sıx əlaqələrə üstünlük verir, bölgələrə mütəmadi səfərlər edir, sahibkarlarla görüşlər təşkil edir və ortaya çıxa biləcək problemlərin vaxtında aradan qaldırılmasını məqsədəuyğun hesab edir. Cəmi bir neçə ay ərzində cənab nazirin bölgələrdə sahibkarlarla görüşü təsdiq edir ki, hazırda fermerlərlə yaxınlıq əvvəlki illərdəkindən əhəmiyyətli dərəcədə çoxdur. Hətta kənd təsərrüfatı naziri özü də bunu, xüsusilə, qeyd edir ki, rayonlara səfər etməkdə məqsəd fermerlərlə daha yaxın olmaqdır.

Bölgələrə səfəri çərçivəsində nazir İnam Kərimov Sabirabad rayon Kənd Təsərrüfatı İdarəsinin Bitki Mühafizə, Aqrokimya və Toxumçuluq Laboratoriyalarına baxış keçirib, Naxçıvana səfər edib və muxtar respublikada kənd təsərrüfatının müxtəlif sahələrində həyata keçirilən tədbirlərlə tanış olub, fermer təsərrüfatları ilə maraqlanıb, Şəki Şəhər Kənd Təsərrüfatı İdarəsinin inzibati binasında Qax, Şəki, Zaqatala, Oğuz və Balakəndən olan vətəndaşları qəbul edib, Ağdam Atçılıq Təsərrüfatında olub və ümumiyyətlə, ölkəmizin bir sıra rayonlarında, kənd və qəsəbələrində fermerlərlə və sahibkarlarla görüşlər keçirib. Sadalanan görüşlər təsdiq edir ki, bu gün aqrar sektor, heyvandarlıq və bitkiçilik, ümumilikdə, kənd təsərrüfatı, onun inkişafı nazir İnam Kərimovun diqqət mərkəzindədir. İqtisadiyyatın bu sahəsinə, yəni kənd təsərrüfatına xüsusi qayğı müşahidə olunur. Əlbəttə ki, məqsəd ölkənin bu sahədə inkişafını təmin etmək, daha böyük nəticələr əldə etməkdir. Bu istiqamətdə "Strateji Yol Xəritəsi"nə müvafiq olaraq, tədbirlər davam etdirilir və cənab nazir tərəfindən diqqət mərkəzində saxlanılır. Bu gün kənd təsərrüfatı sahəsində çalışan hər bir fermer İnam Kərimovun qayğısını hiss edir, yardımına və dəstəyinə inanır. Çünki bu vaxtadək indiki qədər fermerlərlə yaxın təmas müşahidə olunmayıb və bu gün bu yaxınlıq sahibkarlıq subyektlərinin ümidlərini də doğrultmaqdadır.

Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair "Strateji Yol Xəritəsi"nin 2016-2020-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsal və emal sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması vacibdir. Ancaq bir çox məqsədlərə çatmaq üçün müəyyən çətinliklər var və təəssüf ki, aqrar sektor üzrə ixracın 77 %-i hələ də Rusiya istiqamətində həyata keçirilir və cəmi bir bazara çıxış, əlbəttə ki, rəqabət imkanlarının məhdudluğu deməkdir. Sözsüz ki, bu da qiymət amilinin çərçivədən kənara çıxa bilməməsi anlamına gəlir. Nəticənin isə ümumi işin ahənginə mənfi təsiri inkar edilə bilməz. Məhz bu baxımdan, kənd təsərrüfatı nazirinin fermerlərlə görüşlərinin xüsusi əhəmiyyəti danılmazdır və əgər məhsul istehsalının, eləcə də, tədarükünün əhəmiyyətli dərəcədə artımına nail olunarsa, həmin məhsulların dünya bazarına çıxışına, bir sözlə, bütün dünya miqyasında geniş ixracına nail olmaq mümkündür. İstehlakçı tələblərinin fonunda məhsulların daha geniş spektrdə ixracı isə mənfəətin artımı deməkdir və bunun da ölkə iqtisadiyyatına yalnız müsbət təsirindən söhbət gedə bilər.

***İnam HACIYEV***

## Dünyəvi və iqtisadi cəhətdən inkişaf edən Azərbaycan dünya mətbutında

Azərbaycanda ötən 15 il ərizində həyata keçirilən islahatlar, iqtisadi sahədə əldə edilən nailiyyətlər, ölkədəki daxili siyasi sabitliyin təmin olunması, əhalinin sosial rifahının və həyat şəraitinin yüksəlməsi ölkəmizin real mənzərəsinin açıq şəkildə təqdimidir. Azərbaycanın əldə etdiyi uğurlardan dünyanın müxtəlif ölkələrində dərc olunan mətbu orqanlarında, internet portallarında və televiziyalarında bəhs edilir. Bir-birinin ardınca silsilə şəkildə təqdim olunan materiallarda Azərbaycanın iyirmi birinci yüzilliyinin yüksəlişi dünya xalqlarının böyük marağına səbəb olur.İtaliyanın nüfuzlu "La Nazione" qəzetində "Neft, qaz və göydələnlər. Azərbaycan dünyanı cəlb edir", adlı məşhur "İnfocus" portalında "Azərbaycanın İtaliya üçün əhəmiyyəti", ABŞ-da çıxan nüfuzlu "The Washington Times" qəzetində "Azərbaycan demokratiyanın tərkib hissələrini tam şəkildə cəmləşdirir" və onlarla belə məqalələrdə Azərbaycanın enerji təhlükəsizliyi sahəsində Avropanın regiondakı əsas tərəfdaşı olduğu, iqtisadi inkişafı, regionun lider ölkəsinə çevrilməsi, Azərbaycanın müsəlman ölkəsi kimi xalqlar arasında mədəniyyətlərarası dialoqu tam dəstəkləməsi və s. məsələlər qeyd olunur. Elə bu günlərdə Fransanın Elzas regionunun "DNA" qəzetində dərc olunan məqalədə "Qafqazın gənc respublikası 100 illiyini qeyd edir" başlıqlı məqalədə də müəllif Jerar Kardon Avropa və Asiya arasında körpü rolunu oynayan ölkəmizdə hökm sürən sabitlikdən, təbii sərvətlərindən, onların rasional şəkildə ölkəmizin sənaye və texnoloji infrastrukturunun inkişafına sərf edilməsindən yazıb.



Məqalədə demokratik ənənələrin Azərbaycana yad olmadığını vurğulayan müəllif Azərbaycanın müstəqil dövlət olaraq bütün demokratik-hüquqi dövlət normalarına uyğun addım atdığını vurğulayır. Tarixi ekskurs edən müəllif ötən əsrin əvvəllərində - 1918-ci ildə çətin geostrateji şəraitdə Azərbaycan xalqının müsəlman Şərqində ilk demokratik respublika yaratdığını bildirir. Azərbaycanın dünyəviliyindən, bir çox Avropa ölkələrindən əvvəl qadınlara səsvermə hüququ verilməsindən danışıb.

Azərbaycan və İsrail arasındakı ikitərəfli əlaqələrdən bəhs edib, dini tolerantlıqdan, müxtəlif etnik qrupların və dinlərin nümayəndələrinin ölkəmizdə mehriban ailə kimi birgə yaşamasına da toxunub. Həqiqətən də, Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir.

Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan, prinsipial və ədalətli mövqeyi ilə seçilən Azərbaycanın multikultural dəyərləri dünyaya örnək və nümunədir. Əgər Azərbaycanda Sovet məkanında yaşadığımız illərdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2000-i ötüb keçib. Bu gün tolerantlığın məkanı, multikultural ənənələrə, islam dininə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz, nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk.

Bu gün Azərbaycan gənc demokratik ölkədir və möhkəm vətəndaş cəmiyyətinin yaradılması ideyalarına sadiqdir. Bu baxımdan, müəllif Azərbaycan hökumətinin həyata keçirdiyi islahatlar nəticəsində əldə edilmiş nailiyyətlərdən də geniş bəhs edir.

***NƏZAKƏT***

# Gültəkin Hacıbəyli layiq olduğu cəzanı alıb

Dağıdıcı müxalif ünsürlərlə xarici maraqlı dairələr arasında yaranan ziddiyətlər son vaxtlar bir qədər də dərinləşib. Artıq elə bir vəziyyət yaranıb ki, müxalifətin xaricdəki ağaları əlaltılarına qarşı cəza tədbirləri görməyə başlayıblar. Buna misal kimi, "Milli Şura"nın üzvü Gültəkin Hacıbəyliyə AŞPA-nın Prosedur Qaydaları, İmmunitetlər və İnstitusional Əlaqələr Komitəsinin çıxardığı qərarı göstərmək olar. AŞPA G. Hacıbəyliyə qurumun binalarına və tədbirlərinə ömürlük girişinə qadağa qoyub. AŞPA üzvlərinin Korrupsiya İttihamları üzrə Müstəqil İstintaq Orqanının dərc olunan məruzəsinə əsasən, G.Hacıbəyli etik kodeksi pozduğuna görə, ona sanksiya tətbiq olunub. Məruzədə qeyd olunub ki, ittihamlarla bağlı mövqeyini bildirməsi üçün G.Hacıbəyliyə müraciət olunsa da, o, bundan yayınıb. Nəticədə, onun assambleyanın binalarına və tədbirlərinə girişi qadağan edilib. AMİP funksioneri Əli Orucov bizimlə söhbətində qərarın gözlənilən olduğunq bildirdi. Qeyd etdi ki, G.Hacıbəylinin "Milli Şura"nın əsas simalarından biri olması qərarın "Milli Şura"ya qarşı da yönəldiyi anlamı yaradır: "Ümumiyyətlə isə, son vaxtlar Qərb qurumları müxalifət düşərgəsi ilə əlaqələr qurmağa həvəs göstərmir. Bunun da müxtəlif səbəbləri var. Əsas səbəblərdən biri ondan ibarətdir ki, Azərbaycanda demokratik dəyərlər və institutların inkişaf edərək güclənməsi Qərbin marağında deyil. Qərbin marağı, əsasən, enerji təhlükəsizliyi və iqtisadi maraqlardır, onu da təmin edir. Avropa qurumlarının müxalifət düşərgəsinə qarşı sərt münasibətini mən müşahidə etməmişəm. Lakin isti münasibətlər də yoxdur. Bunun da əsas səbəblərinə toxundum. Lakin bu da daimi olmaya bilər. Görünür, müxalifətin hansısa tərəfi xarici maraqlı görünən dairələrlə iş birliyində səhvlərə yol verib. Bu da ortaya ziddiyyətlərin yaranmasını gətirib çıxarıb".



*Əli Orucov:* **"Qərb qurumları müxalifət düşərgəsi ilə əlaqələr qurmağa həvəs göstərmir "**

"Xarici maraqlı dairələrlə dağıdıcı müxalifət arasında yaranan qarşıdurmanın və ziddiyyətlərin kökündə müxalifətin üzərinə götürdüyü hansısa öhdəlikləri yerinə yetirməsinin dayandığını ehtimal etmək olarmı" sualına cavab olaraq Ə.Orucov müxalifətin xarici dairələr qarşısında üzərinə hansı öhdəliklər götürməsinin yolverilməz olduğunu bildirdi: "Belə hallar Azərbaycan qanunvericiliyinə ziddir. Hər bir kəs, o cümlədən, siyasi partiya öz məsuliyyətini dərk etməlidir. Milli və dövlətçilik maraqları hər şeydən üstün tutulmalıdır. Bunu dərk etməyən və ya anlamayan öz mənafeyini düşünənlərdir ki, bu da o cür yol tutanlara heç zaman başucalığı gətirməz".

Ədalət partiyasının funksioneri Mütəllim Rəhimli də "Səs"ə açıqlamasında xarici dairələrin müxalifətdən imtina etməsinin kökündə günahkar müxalifətin özünün olduğunu bildirdi: "Bu gün beynəlxalq aləmin özündə kifayət qədər mürəkkəb proseslər gedir. Hansı ki, bunlara əvvəlki kimi, birmənalı qiymət vermək mümkün deyil. Çünki dünyada böyük dəyişikliklərin getdiyi görsənməkdədir. Əgər müxalifətə qarşı mənfi münasibət varsa, bu, müxalifətin özünün fəaliyyətinin nəticəsində yaranmış münasibətdir. Belə ki, son dövrlər müşahidə olunur ki, müxalifət düşərgəsində qarşılıqlı ittihamlar daha çox yer alır. Birmənalı mövqe ondan ibarətdir ki, bu gün müxalifətdaxili çəkişmələr və vahid ideya uğrunda mübarizə gedir. Məhz bu qarşıdurma müxalifəti də xarici dairələrin gözündən salıb. Dəfələrlə "Milli Şura" və ya Müsavat mitinqlər keçirməyə cəhd edib, ancaq fakt budur ki, aksiyalar alınmayib".



*Mütəllim Rəhimli:* **"Daxili qarşıdurma müxalifəti də xarici dairələrin gözündən salıb"**

"Müxalifət öz aralarında nəyi bölə bilmir" sualına cavabında M.Rəhimli bildirdi ki, müxaliflərin bölə bilmədikləri onların iddialarıdır: "Radikal müxalifət düşərgəsini təmsil edən şəxslər öz aralarında birincilik uğrunda mübarizə aparırlar. Bu mübarizə müxalifətin birləşməsinə deyil, dağılmasına gətirib çıxarır. Bir sözlə, müxalifət təmsilçilərinin bir-birinə qarşı olan şəxsi iddiaları onları uçuruma aparır. Əgər iddialarından əl çəkməsələr, müxalifəti son dərəcə ağır durum gözləyir. Ən azı partiyalardan kütləvi istefalar baş verə bilər. Bəzi partiyaların fəaliyyətlərini dayandırmaları da mümkündür".

***GÜLYANƏ***

# "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalı

***Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə "100 illik tariximiz" devizi altında "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalı davam edir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş layihənin əsas məqsədi zəngin dövlətçilik ənənələrinə malik olan xalqımızın mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi və bölgələrarası mübadilənin gücləndirilməsidir. Layihənin yay mövsümündə keçirilməsi həm ölkəmizə gələn xarici qonaqlara, həm də yerli sakinlərə regionların rəngarəng mədəni həyatı ilə əyani şəkildə tanış olmağa imkan yaradır.***

"100 illik tariximiz" başlığı altında gerçəkləşən festivalın növbəti tədbiri iyulun 1-də Sabirabaddakı Heydər Əliyev Parkında təşkil olunub. Parkda Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin - Sumqayıt, Gəncə, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Lənkəran, Masallı və Biləsuvar regional mədəniyyət idarələrinin festival çadırları qurulub, şəhər və rayonların mədəni irsini əks etdirən sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işlərinin satış-sərgisi keçirilib.





Açılış mərasimində çıxış edən Sabirabad rayon icra hakimiyyəti başçısının müavini Həsən Həsənov festivalın əhəmiyyətini nəzərə çatdırıb. Vurğulanıb ki, layihə ilk dəfə ölkəmizin bütün regionlarını əhatə etməklə şəhər və rayonların bir-birinin mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənəti ilə tanış olmaq imkanı yaradır. Yaradıcılıq festivalında hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri öz bacarıqlarını nümayiş etdiriblər. Rayon sakinləri, tədbirə dəvət edilən qonaqlar, habelə, festival iştirakçıları pavilyonlara baş çəkərək, ayrı-ayrı bölgələrə aid mədəni irsi, həmin bölgənin tarixi və müasir inkişafını əks etdirən sənət nümunələri ilə yaxından tanış olublar.

İştirakçılar tədbirlə bağlı təəssüratlarını bölüşüblər.

Bərdə Regional Mədəniyyət İdarəsini təmsil edən Validə Nabatova festivalın yay mövsümündə keçirilməsinin xüsusilə əhəmiyyət kəsb etdiyini deyib. Onun sözlərinə görə, bu layihə sayəsində həm xarici qonaqlar, həm də yerli sakinlər regionların rəngarəng mədəni həyatı ilə yaxından tanış ola bilirlər: "Bizim bölgənin də çox zəngin tarixi-mədəni irsi var. Bərdə beş əsrə yaxın Azərbaycanın qədim dövləti - Qafqaz Albaniyasının paytaxtı olub. Bu gün bölgədə bu tarixi zənginlik yaşadılır. Mədəniyyət Nazirliyi indiyədək bu qəbildən bir çox layihələr təşkil edib. Bu festival hər kəsin ürəyincədir. Bərdə şəhərində də festivalı böyük ruh yüksəkliyi ilə keçirəcəyik".

Gədəbəy Aşıq Məktəbinin direktoru Etibar Əliyevin də festivalla bağlı zəngin təəssüratı var: "Bu tədbiri yüksək qiymətləndiririk. Bu, ölkəmizin bölgələrinin mədəni zənginliyinin bir görüntüsü, o cümlədən, bir çox nümunələri UNESCO siyahılarına daxil edilmiş irsimizin parlaq təqdimatıdır".

Tədbirdə regional idarələrin incəsənət ustalarının konsert proqramı maraqla qarşılanıb. Festival atəşfəşanlıqla başa çatıb.

Qeyd edək ki, iyunun 25-26-da Masalı və Lənkəranda, ayın 30-da Salyan şəhərində keçirilən "Bölgələrdən-bölgələrə" Yaradıcılıq Festivalı nazirliyin 15 regional idarəsinin hər birində təşkil olunacaq.

***ZÜMRÜD***

# "Azəriqaz" "ASAN xidmət" vasitəsilə 106,6 mindən çox istehlakçıya xidmət göstərib

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi bu il "ASAN xidmət" vasitəsilə 106,6 mindən çox istehlakçıya xidmət göstərib.

Birlikdən AZƏRTAC-a bildirilib ki, "Azəriqaz" tərəfindən bu ilin yanvar-iyun ayları ərzində Azərbaycan ərazisində fəaliyyət göstərən "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində istehlakçılardan daxil olan müraciətlər əsasında smart tipli sayğaclar ilə təchiz olunmuş istehlakçılara müvafiq xidmətlərin göstərilməsi, müraciətlərdən asılı olaraq şöbələrdən tələb olunan məlumatların əldə olunması və bu məlumatlar əsasında istehlakçılara xidmətlərin göstərilməsi təmin edilib.

Cari ilin 6 ayı ərzində Bakı şəhəri üzrə 1 və 2 saylı "ASAN Kommunal", 4, 5 saylı "ASAN xidmət" mərkəzlərinə və "ASAN səyyar" xidmətinə, bundan əlavə Bərdə, Sabirabad, Masallı, Qəbələ, Quba, Mingəçevir, həmçinin Gəncə şəhərində yerləşən "ASAN xidmət" mərkəzlərinə ümumilikdə 106 min 642 müraciət daxil olub və bu müraciətlərin icrası tam təmin olunub. İstehlakçılarla münasibətlərin təkmilləşdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə "Azəriqaz" bu istiqamətdə fəaliyyətini bundan sonrada davam etdirəcək.

# Xəzər rayonunda 100-dək Eldar şamı ağacının kəsilməsi faktı aşkarlanıb

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Qaynar xətt"inə Xəzər rayonunun Ramana qəsəbəsində ağacların kəsilməsi ilə bağlı daxil olan şikayəti Bakı Şəhər Ekologiya və Təbii Sərvətlər Departamentinin əməkdaşları yerində araşdırıblar.***



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin əraziyə keçirilən baxış zamanı oradakı yaşıllıq zolağının hasara alındığı və 100-dək Eldar şamı ağacının kəsildiyi aşkarlanıb.

Qanun pozucuları barədə qanunauyğun tədbirlərin görülməsi, ərazidə olan yaşıllıqların qorunması və hasarın sökülməsi üçün Sabunçu və Xəzər rayon icra hakimiyyətlərinə, Bakı Şəhər Baş Polis İdarəsinə telefonoqramlar göndərilib.




# Türkiyədəki seçkilər Ermənistan siyasi kuluarlarında necə qiymətləndirildi?

## *Yaxud Ərdoğanın qələbəsi erməni türkoloqlarının gözünü belə qorxudub*

***Türkiyədə keçirilmiş parlament və prezident seçkilərində Ədalət və İnkişaf Partiyasının lideri Rəcəb Tayyib Ərdoğanın qələbə qazanması Ermənistanda ciddi müzakirələrə səbəb olmaqdadır. Belə ki, 52,5 % səs qazanaraq qalib gələn hakim partiyanın liderindən sonra ikinci yerdə 30% səsi Cümhuriyyət Xalq Partiyasından olan namizəd Muharrem İncə, üçüncü yerdə isə 8,3 % səslə PKK terror təşkilatını dəstəklədiyinə görə həbsdə olan Xalqların Demokratik Partiyasının təmsilçisi Salahaddin Demirtaş qərarlaşıb. Parlament seçkilərində isə nəticə olaraq, 600 mandatlı qanunvericilik qurumunda hakim partiya daha öncəki 301 mandat yerinə 293 mandata sahib olub. Bu barədə yazan Ermənistanın "1in.am" saytında qeyd edilir ki, Ərdoğan qalibiyyətə baxmayaraq, parlament seçkilərinin nəticələrindən razı qalmayıb. Buna rəğmən, ermənilərin ictimai-siyasi dairələri, bütövlükdə, Türkiyədəki seçkilərin nəticələri ətrafında çoxsaylı müzakirələr aparırlar. Daha dəqiq desək, seçki nəticələrinin regional siyasət baxımından, eyni zamanda, Türkiyə-Ermənistan münasibətləri baxımından hansı nəticələrə doğru inkişaf edəcəyi işğalçı ölkədə maraq doğurmaqdadır.***

### Hayk Qabrielyan: "25 ildir ki, Türkiyə Azərbaycana görə erməni-türk sərhədlərini bağlı saxlayır"

Erməni türkoloqu, ekspert Hayk Qabrielyana görə, Türkiyənin xarici siyasətində yaxın illərdə heç bir dəyişiklik baş verməyəcək, çünki parlamentdəki səs çoxluğu yenə də Ərdoğanın partiyasına mənsubdur. O isə, eyni zamanda, prezident seçilib. Erməni türkoloqu iddia edir ki, Türkiyənin regionda yeritdiyi xarici siyasəti daha da sərtləşəcək ki, bu da həmin kontekst baxımından, Ermənistanla münasibətdə mənfi təsirlərini göstərəcək. Lakin Qabrielyan bu münasibətlərin normallaşa biləcəyi ehtimalını da istisna etməyib. Daha doğrusu, erməni ekspert ehtimal edib ki, bunun əks-faktoru da ola bilər. "Nəzərə alsaq ki, Ərdoğan ölkəni təkbaşına idarə edəcək, o, eyni zamanda Ermənistanla münasibətlərin normallaşmasına da səy göstərə bilər"-deyə qeyd edən türkoloq onu da bildirib ki, Ərdoğan ölkə müxalifətinin etirazlarını nəzərə almadan da bu addıma gedə bilər. Ancaq Qabrielyanın bu kimi fikirləri, sadəcə, ehtimaldır və bu gün Türkiyənin Ermənistanla bağlı siyasətində atdığı qətiyyətli addımı və qərarı uzun illərdir ki, bəllidir. Hətta daha öncəki hakimiyyətlər dövründə qardaş Türkiyə işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılmayacağına qədər Ermənistanla heç bir münasibət qurmayacağını qəti şəkildə bəyan edib.

Digər tərəfdən, hələ də Türkiyə ilə münasibətlər quracaqlarına ümid edən ermənilər bu və ya digər amillər baxımından müxtəlif cəhətlərdən nəyisə sübut etməyə çalışırlar. Misal üçün, H.Qabrielyana görə, Ermənistanın yeni hakimiyyəti Ərdoğanda müəyyən maraqlar oyadıb: "Nikol Paşinyan erməni-türk münasibətlərinin normallaşması ilə bağlı bəyanat verərkən, Türkiyə tərəfi dərhal həmin bəyanata yüksək səviyyədə - baş nazir və prezident səviyyəsində reaksiya göstərdi. Halbuki sabiq prezident Serj Sarkisyan BMT-nin Baş Assambleyasının tribunasından çıxış edərkən, Türkiyəyə qarşı ultimatum irəli sürmüşdü ki, əgər yaza qədər erməni-türk münasibətləri ilə bağlı protokollar ratifikasiya edilməsə, Ermənistan onları ləğv edəcək. Bu bəyanatdan sonra belə, Türkiyə heç bir reaksiya verməmişdi. Paşinyanın çıxışını isə Türkiyə hakimiyyətinə jest kimi qiymətləndirmək olar".

Beləliklə, erməni eksperti hələ də ümid etdiklərini sərgiləyir. Ancaq bir reallığı anlamır ki, Türkiyə müəyyən mənada, hər hansı bəyanata müsbət reaksiya göstərə bilər, ancaq ortada olan bəlli tələb reallaşmayacağına qədər heç bir normal münasibətlərdən danışmaq olmaz.

Erməni türkoloqu Türkiyənin Ermənistanla münasibətlərinin normallaşması ilə bağlı daha bir faktora ümid etdiklərini deyib - bu, İsrail amildir. H.Qabrielyan kifayət qədər ucuz və qeyri-real görünən proqnozdan çıxış edərək, bildirir ki, əgər Ərdoğan, həqiqətən də, səmimidirsə və ikili oyun oynamırsa, eləcə də, Fələstin naminə açıq şəkildə konfrontasiyaya getmirsə, çox sakit halda Azərbaycandan İsraillə münasibətlərə yenidən baxılmasını tələb edə bilər və s. Təbii ki, erməni türkoloqu burada da ciddi səhvə yol verərək, unudub ki, Azərbaycan Ermənistandan və başqa post-sovet dövlətlərindən fərqli olaraq, suverenliyini qoruyub-saxlayır, tam müstəqil siyasət aparır, eləcə də, hansı dövlət olmasından asılı olmayaraq, diktələri qəbul etmir. Lakin nə qədər maraqlı görünsə də, Qabrielyanın özü də yuxarıda qeyd edilən fakta toxunur. "Xatırlatmaq istərdim ki, 25 ildir ki, Türkiyə Azərbaycana görə erməni-türk sərhədlərini bağlı saxlayır"-deyə qeyd edən erməni eksperti bu məsələdə təxribat meyilli fikirlərini öncə sürərək, iddia edir ki, buna rəğmən, Azərbaycan Türkiyənin İsraillə soyuq münasibətlərinə baxmayaraq, bu ölkə ilə münasibətlərini inkişaf etdirir. Söz yox ki, erməni türkoloqu burada suyu bulandırmaq məqsədini güdür.

### Ruben Safrastyan: "Türkiyə çox ciddi şəkildə Yaxın Şərqdə, xüsusilə Suriyada, İraqda və Cənubi Qafqazdakı siyasətini davam etdirməkdə maraqlıdır və Ermənistan-Türkiyə münasibətlərinin həll edilməsi istiqamətində heç bir aktivlik göstərməyəcək"



Digər erməni türkoloqu, Ermənistanın milli akademiyasının şərqşünaslıq institunun direktoru Ruben Safrastyan isə sözügedən məsələyə münasibətini bildirərkən, deyib ki, Türkiyə bu seçkilərdən sonra Suriyanın şimal sərhədlərində öz siyasətini davam etdirəcək. O, bu məsələdə iddia edir ki, Türkiyə ordusunun Suriya ərazilərinə daxil olması "işğal" məqsədi daşıyır: "Ərdoğan öz çıxışında dəqiq şəkildə formalizə edir ki, Suriya sərhədlərini azad etməkdə davam edəcək və bunu qaçqınların geri qaytarılmaları ilə əlaqələndirir. Bu, o deməkdir ki, Türkiyə öz siyasətini davam etdirməklə, bu ölkənin hakimiyyətinin razılığı olmadan ölkənin ərazilərini zəbt edir". Bu kimi proqnozlarla çıxış edən erməni türkoloqu həmin siyasətin davam ediləcəyini və genişləndiriləcəyini iddia edir.

R.Safrastanın sözlərinə görə, Ərdoğan yeni Türkiyənin yaradılmasına çalışır. "2023-cü ilə qədər Ərdoğan yeni Türkiyəni yaradacaq"-deyə qeyd edən erməni türkoloqu xarici siyasət faktoruna da toxunaraq, bildirir ki, yeni siyasət Türkiyənin dünyadakı rolunu artırmağa yönəldilməlidir. "O öz çıxışında da bildirib ki, məqsəd Türkiyənin dünyanın 10 ən inkişaf etmiş ölkələri sırasına daxil etməkdir"-deyə bildirən Safrastyana görə, bu, çox uzun bir proqramdır. Erməni eksperti, nə qədər qəribə görünməsə də, məhz erməni maraqlarından çıxış edərək, Türkiyənin inkişafını və ortaya qoyulan məqsədlərin reallaşmasını region üçün "təhlükə" hesab etdiyini deyib. Bu baxımdan, o, bir daha erməniçilik və anti-tükçülük marağını gizlətməyərək, Ərdoğanın apardığı uğurlu və məqsədyönlü siyasətinə kölgə salmağa çalışır və bildirir ki, "yaxın illərdə Türkiyədə kifayət qədər təhlükəli və avantüraçı xarici siyasətin aparılması gözlənilir". Erməni türkoloqu parlament seçkilərində hakim Ədalət və İnkişaf Partiyasına Milli Hərəkat Partiyasının bir qisminin dəstək verməsinə də münasibətini bildirərək, deyib ki, artıq bu reallıq belə nəticəyə gəlməyə zəmin yaradır ki, Türkiyədə pantürkizm siyasəti davam etməklə yanaşı, həm də inkişaf edəcək: "Onların bir qismi Ərdoğanla birləşərək, parlamentə qatıldılar və bu, o deməkdir ki, pantürkizm ideyaları inkişaf etməklə yanaşı, Türkiyənin yeni mərhələdəki xarici siyasətinə də sirayət edəcək. Hesab edirəm ki, bu tendensiya nəzərə alınmalıdır"-deyə Safrastyan daxilindəki təlaşını gizlədə bilməyib. Bu da, belə nəticəyə gəlməyə zəmin yaradır ki, Ermənistanın ictimai-siyasi və s. dairələri Türkiyə və türkçülük faktorundan ciddi şəkildə çəkinirlər və bunu özlərinə vurulacaq ən ağır zərbə kimi qiymətləndirirlər.

Onun fikrincə, Türkiyə Cənubi Qafqaza yönəldilmiş siyasətində öz baxışlarını dəyişməyəcək və Ermənistanın ümid etdiyi heç bir "pozitiv" addımlar atmayacaq. "Türkiyə çox ciddi şəkildə Yaxın Şərqdə, xüsusilə Suriyada, İraqda və Cənubi Qafqazdakı siyasətini davam etdirməkdə maraqlıdır və Ermənistan-Türkiyə münasibətlərinin həll edilməsi istiqamətində heç bir aktivlik göstərməyəcək"-deyə R.Safrastayn bildirib.

### Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi paraddakı birgə çıxışları Ermənistanı pəjmürdə edib və qorxuya salıb

Beləliklə, fakt budur ki, Ermənistan Türkiyədəki seçkilərin nəticələrindən, daha dəqiq desək, Ərdoğanın qələbəsindən ciddi şəkildə təlaş keçirir və sadəcə, münasibətlərin normallaşmasında deyil, eləcə də, xarici siyasətində heç bir dəyişiklik edilməyəcəyindən təlaş keçirirlər. Bu təlaşın arxasında dayanan daha bir faktor isə, təbii ki, Türkiyənin Azərbaycanla olan qardaşlıq münasibətləridir. Xüsusilə, Bakıda Silahlı Qüvvələrimizin yaradılmasının 100-cü ildönümünə həsr edilmiş növbəti hərbi paradda Türkiyə Silahlı Qüvvələrinin, eləcə də, Hərbi-Hava Qüvvələrinin Azərbaycan Ordusu və Hərbi-Hava Qüvvələri ilə birgə iştirakı Ermənistanda ciddi qorxu yaradıb. Əbəs deyil ki, paradın keçirildiyi zaman Nikol Paşinyan dərhal Ermənistanın təhlükəsizlik şurasının iclasını çağırıb və eyni zamanda, cəbhə xətti boyunca, xüsusilə, Naxçıvanla sərhəddə Ordumuzun uğurlarını və fəallığını etiraf edib. Belə olan vəziyyətdə, erməni plitoloqlarının, türkoloqlarının və hərbi ekspertlərinin müxtəlif fərziyyələrlə çıxış etmələri, nəyə isə ümid etmələri, sadəcə, özünü aldatmaq, yaxud özünütəskinlik kimi qiymətləndirilə bilər.

***Rövşən NURƏDDİNOĞLU***

# "Afrikada "qapağan" dedikdə Ermənistan yada düşür"



***"Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində baş verənlər son 20 il ərzində Qarabağ klanının ermənilərin başına açdığı oyunlar barədə aydın təsəvvür yaradır. Hətta evi olmayan Manvel Qriqoryan indi Ermənistanda və Dağlıq Qarabağda böyük və çoxsaylı mülklərə, zooparka, avtoparka malikdir. Əvvəlcə Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara qarşı soyğunçuluq edən quldur general Manvel Qriqoryan atəşkəs rejimindən sonra ermənilərə qarşı soyğunçuluq etdi". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***



Mərkəz sədrinin sözlərinə görə, aparılan yoxlamalar onun hətta aprel döyüşləri zamanı xaricdən Ermənistana göndərilən yardımın böyük bir qismini özününküləşdirdiyini göstərir: "Aprel döyüşləri zamanı hətta 3-4 gün yemək tapa bilməyən erməni döyüşçüləri olub. İndi bəlli olur ki, o zaman M.Qriqoryanın Dağlıq Qarabağdakı anbarları əsgər payları ilə dolu imiş.

M.Qriqoryanın təkbaşına fəaliyyət göstərdiyini düşünmək sadəlövhlükdür. Quldur general M.Qriqoryan əvvəlcə Vazgen Sərkisyanın, sonra Robert Köçəryanın, sonra isə Serj Sərkisyanın əlində alət və vasitə oldu. 1999-cu ilin parlament güllə-boranından üzü bəri baş verən bütün proseslərdə quldur M.Qriqoryan gah o, gah da bu tərəfin mövqeyini dəstəklədi.

Vasitə olması isə daha qabarıq şəkildə üzdədir. Ermənistanın kəskin müxalifətçilərindən olan Arbat Xaçatryanın fikirlərinə istinad etsək kənddən boş əllə Yerevana gəlmiş Robert Köçəryan və S.Sərkisyan indi Ermənistanın yarısına sahibdirlər.

R.Köçəryanın əmlakının 5 milyard dollar olduğu barədə məlumatlar var. S.Sərkisyanın da əmlakı təxminən bu miqdardadır. R.Köçəryan və S.Sərkisyanın erməni xalqını talaması üçün M.Qriqoryanın hərbi dəstəsi vasitə idi.

Hərbi komandirlərin öz tabeçiliyində olanların əlindəkiləri necə talan etməsi ilə bağlı hər gün mətbuatda məlumatlar yayılır. M.Qriqoryanın anbarları ərzaq və digər məhsullarla dolu olduğu halda erməni əsgərini ərzaq və gündəlik tələbat mallarını valideynləri təmin edirmiş. Günlərlə əsgərin ac qalmasından xəbərdar olan Manvel Qriqoryan meymun və şirlərini əsgər payları ilə yemlədiyi halda erməni əsgərinə o paylardan vermirdi. Çünki M.Qriqoryan R.Köçəryan və S.Sərkisyanın yalnız oğurluq barədə düşündüklərini bilirdi.

Polşada erməni əsgərləri üçün nəzərdə tutulmuş konservlər açıq şəkildə mağazalarda satılırdı. Bu fakt özü Ermənistan mətbuatında qalmaqal yaratsa da sonradan işi örtbasdır etdilər. Təbii ki, bu M.Qriqoryanın S.Sərkisyanla birlikdə əməli olduğu üçün sonadək tədqiq edilmədi.

Artıq birmənalı şəkildə demək olar ki, bütün Ermənistan cəmiyyəti oğru, rüşvətxor və qapağanlardan ibarət imiş. 5-3 faizin kənarda qalması ümumi mənzərəni dəyişmir. S.Sərkisyan Ermənistanda və Dağlıq Qarabağda elitanın oğru və rüşvətxor olmasında maraqlı idi. Çünki daha asan idarə edə bilirdi. Uzun müddət Dağlıq Qarabağda müdafiə naziri işləmiş indi Ermənistanın müdafiə nazirliyinin baş inspektoru Movses Akopyanın korrupsiya fəaliyyəti və həyat yoldaşının davranışı ilə bağlı məlumatlar heç kəsə sirr deyil. Amma M.Akopyan rütbə və vəzifədə böyüyür. Çünki erməni cəmiyyətində inkişaf etməyin yeganə yolu oğurluq və qapağanlıqdan keçir.

Bütün bu aşkarlanan faktlar separatçı Dağlıq Qarabağın de-fakto rəhbərliyinin təmsilçilərində müvafiq hisslər, düşüncələr yaradır. İndi Afrikada da "qapağan" dedikdə Ermənistan yada düşür.

Afrikanın həm də primatların vətəni olmasını nəzərdə tutmuruq. David Babayan baş verənlərlə tanış olduqda istər-istəməz "qapağan" ifadəsini xatırlamalıdır. Amma bu ifadəni işlətməyin orijinal variantını tətbiq etdi: Azərbaycan rəhbərliyinə ünvanladı. David Babayan Azərbaycan vətəndaşıdır, bəlkə vicdana malikdir. Yaxında onun vicdanın oyanacağına, qapağan terminini əsl sahibinə ünvanlayacaq".

# Bütün kartlar açıq, bütün faktlar ortadadır

## *Rusiyalı hərbi-siyasi ekspert erməniləri məyus etdi*

***Azərbaycan Ordusunun potensialına "Polonez" tipli raket kompleksinin daxil edilməsi, eləcə də, silahlı qüvvələrimizin Naxçıvanda 11 min hektar ərazini düşmən tapdağından azad edərək, mühüm strateji əhəmiyyətli mövqeləri nəzarətinə keçirməsi Ermənistan ictimaiyyətində, eləcə də, hərbi-siyasi dairələrində ciddi narahatlıq və təlaş doğurmaqda davam edir. Belə ki, Ermənistanın müdafiə nazirliyi hər vəchlə baş verənləri yalanlamağa, ictimai rəyi çaşdırmağa cəhdlər göstərsə də, erməni mediasında bu mövzuda mülahizə və müzakirələrin aparılması, bir daha sübut edir ki, Azərbaycan Ordusunun son zamanlar ard-arda uğurlar qazanması gerçəklikdir və bu gerçəkliyi heç bir bəhanə, yaxud yalan ört-basdır edə bilməz.***

### Rusiyalı hərbi ekspert: "Azərbaycan öz hərbi potensialını artırır və mövcud raket sistemi strateji və taktiki vəziyyətdən asılı olaraq istifadə ediləcək"

Misal üçün, Ermənistanın bir neçə dildə (ingilis, rus, türk) fəaliyyət göstərən "news.am" saytı bu mövzunu gündəmdə saxlayaraq, Rusiyanın siyasi və hərbi analiz institutunun direktor müavini, hərbi-siyasi ekspert Aleksandr Xramçenkodan münasibət öyrənib. Xramçenko Azərbaycanın Belorusdan aldığı "Polonez" raket kompleksi ilə bağlı fikirlərini açıqlayarkən, Azərbaycanın hücum siyasəti apardığına və hər an müharibəyə başlamaq mümkünlüyünə işarə edib.

Azərbaycanın adıçəkilən silahı alması nəticəsində, hansı üstünlük əldə etməsi barədə verilən sualı cavablandıran rusiyalı hərbi-siyasi ekspertə görə, hər yerdə hər şeyə qarşı müqavimət göstərmək olar. "Elə bir silah yoxdur ki, ona qarşı müqavimət göstərilməsin"-deyə qeyd edən Xramçenko əlavə edib: "Azərbaycan öz hərbi potensialını artırır və mövcud raket sistemi strateji və taktiki vəziyyətdən asılı olaraq istifadə ediləcək. Hər şey müharibənin gedişatından asılı ola bilər" .

### Aleksandr Xramçenko: "Azərbaycan istər canlı qüvvə baxımından, istərsə də texniki cəhətdən üstünlüyə sahibdir"

Aleksandr Xramçenko Ermənistanın Rusiyadan aldığı "İsgəndər" raket sistemi ilə "Polonez"i müqayisə edərək bildirib ki, əgər "İsgəndər"in taktiki-texniki cəhətdən hədəfi daha dəqiq vurmaq imkanı olsa da, "Polonez"in də kifayət qədər hərbi mümkünlüyü var ki, bu da hədəfə daha çox raket zərbələri vurmağa imkan verir.

Rusiyalı hərbi-siyasi ekspert Dağlıq Qarabağ ərazisində hərbi əməliyyatların başlaması ehtimalını qaçılmaz adlandıraraq, bildirib ki, mövcud problemin həllinin müharibə etmədən tapılmasının çətin olduğunu de-



yib. Beləliklə, Xramçenko Azərbaycan tərəfinin hərbi əməliyyatlar baxımından daha radikal addımlar ata biləcəyini istisna etməyib və silahlı qüvvələrimizin üstün mövqeyə sahib olduğunu bildirib: "Azərbaycan istər canlı qüvvə baxımından, istərsə də texniki cəhətdən üstünlüyə sahibdir və yerlərdə azərbaycanlılarda keyfiyyət üstünlükləri də mövcuddur ki, buraya hərbi-hava qüvvələrini də əlavə etmək olar..."

Ekspert, Ermənistan tərəfinin hücum etməkdənsə, müdafiə olunmaq cəhətində qalmasını tövsiyə edib və hətta belə olan halda, hadisələrin necə nəticələnəcəyi baxımından cavab verməyə çətinlik çəkdiyini bildirib.

Beləliklə, görünən budur ki, Ermənistanda vəziyyət, həqiqətən də, təlaşı nümayiş etdirir və son günlər Azərbaycan Ordusunun qazandığı nailiyyətlər, xüsusilə, ən müasir silahlarla təchiz olunması erməni ictimaiyyətində xof yaradıb. Necə deyərlər, bütün kartlar açıq, bütün faktlar ortadadır...

***Rövşən NURƏDDİNOĞLU***

# İyulun 1-də günvurma ilə əlaqədar 20 nəfər paytaxtın təcili yardım stansiyalarına müraciət edib




Havaların isti keçməsi ilə əlaqədar bu il mayın əvvəlindən bəri Bakı Şəhər Təcili Tibbi Yardım Xidmətinə günvurma diaqnozu ilə 49 nəfər müraciət edib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakı şəhəri Təcili Təxirəsalınmaz Tibbi Yardım Xidmətinə günvurma şikayəti ilə müraciət edənlərin 21-nə ambulator yardım göstərilib, 28 -nə isə orta dərəcəli günvurma diaqnozu qoyularaq stasionar tibb müəssisələrinə yerləşdirilib. Müraciət edənlərə lazımi tibbi yardım göstərilərək müvafiq müalicə tədbirləri görüləndən sonra evə buraxılıb.

Zərərçəkənlərdən 32-si orta yaşlarında kişi , 4-ü azyaşlı və 9-u qadındır, onların arasında ağır və həyati təhlükə ilə üzləşən olmayıb.

İyulun ilk günü günvurma ilə əlaqədar 20 müraciət qeydə alınıb. Günvurma onlarda əsasən başağrısı və halsızlıq simptomları ilə özünü büruzə verib.

Bakı şəhəri Təcili Təxirəsalınmaz Tibbi Yardım Xidməti vətəndaşlardan günvurmadan qorunmaq məqsədilə günorta vaxtlarında açıq havada çox olmamağı, qoruyucu vasitələrdən istifadə olunmasını və kifayət qədər sərin maye qəbul etməyi tövsiyə edir. Hətta yüngül dərəcəli günvurma halları olduqda vətəndaşın durumuna nəzarət məqsədilə ərazi poliklinika şöbəsinə müraciət edilməsi məsləhətdir.

# Əli Kərimli müxalifətin üz qarasına çevrilib

***H**ər kəsə məlum olan fakt ondan ibarətdir ki, AXCP və Müsavat kimi dağıdıcı xislətli partiya funksionerləri düşdükləri böhranlı durumdan çıxa bilmədiklərini dərk etdiklərindən, çıxış yolunu milli və dövlətçilik maraqlarına zərbə vurmaqda görürlər.*

Bu yarıtmaz ünsürlər "cəhənnəmə gedən özünə yoldaş axtarar" məsələnə uyğun olaraq, xalqına və dövlətinə xəyanət edərək, erməni ilə işbirliyi qurmaqdan çəkinməyən Emin Milli, Xədicə İsmayıl, Leyla Yunus və bu kimi digər məkrli şəxslərdən öz çirkin məqsədləri üçün istifadə etməkdən çəkinmirlər. Baxmayaraq ki, bəzi hallarda onların arasında ziddiyyətlər üzə çıxır. Bunu Müsavat başqanının keçmiş müavini Qubad İbadoğlu da dilə gətirib. O, X.İsmayılı yalançı müxalifətçi və saxta vətənpərvər adlandırıb: "Siz ey Vətən, millət və dövlət anlayışlarına gizli nifrətini zaman-zaman bürüzə verən, əlacsız qalanda isə son çarə kimi "Çamur at, izi qalsın" prinsipi ilə mövcudluğunu sürdürən prinsipsizlər - yalançı müxaliflər, saxta vətənpərvərlər! Qulaqlarınızı açın və eşidin: Mən təmsil olunduğum istənilən beynəlxalq və yerli platformada əsaslandırılmış müstəqil mövqedən çıxış edirəm, mövqeyim həmişə Azərbaycan dövlətinin və müstəqil vətəndaş cəmiyyətinin maraqlarının müdafiəsi üzərində qurulub".

## Əli Kərimlinin vəziyyəti ağırdır

Bu kimi etiraflardan və əldə olunan məlumatlardan sonra bir daha onu demək olar ki, Azərbaycanı istəməyən bəzi məkrli təşkilatların ayırdığı qrant Ə.Kərimli, C.Həsənli, A.Hacılı və digərləri üçün milli maraqlardan daha önəmlidir. Baxmayaraq ki, AXCP ilə



Müsavat heç zaman bir araya gələ bilmir. Bir-birini sıradan çıxarmaq sanki onların əsas fəaliyyət istiqamətləri olub. Ancaq Azərbaycanın əldə etdiyi uğurlara kölgə salmaq və xarici ağalarının sifarişlərini yerinə yetirmək məsələsində bir yerdədirlər. Çünki xarici qrant verən ağaları belə istəyir. Satılmağa baxmayaraq, Ə.Kərimlinin vəziyyəti acınacaqlıdır. Yəni AXCP parçalanaraq, dağılmaq problemi ilə üzləşməkdədir. Vəziyyətdən çıxış yolu da görünmür. Bu baxımdan, demək olar ki, yaxın vaxtlarda AXCP tarixin zibilliyinə atılacaq. ADP sədri Sərdar Calaloğlu da mətbuata verdiyi açıqlamasında Ə.Kərimlini xaricdən maliyyə vəsaiti almaq üçün AXCP-ni satışa çıxarmaqda ittiham edib: "Ə.Kərimli maliyyə fondlarından maliyyə vəsaiti almaq üçün dəridən-qabıqdan çıxır. Bu hal biabırçılıqdır. Ə.Kərimli əməllərindən utanmalıdır ".

## Satmağa və satılmağa öyrəncəli olanlar

Çoxlarında belə bir sual yaranır: müxalifət liderləri və xaricdəki mühacir həyatı yaşayan azərbaycanlı adına iddia edənlər niyə doğulub boya-başa çatdıqları dövlətinə düşmən kəsilirlər? Nədən onlar xalqdan ayrı düşərək, milli maraqlarımıza zərbə vurmaq yolu tuturlar? Cavabı qısadır: müstəqil fikrə malik olmamaları və xarici maraqlı dairələrin təsiri altına düşmələridir. Fikir verin, dağıdıcı müxaliflərlə yanaşı, Avropada mühacir həyatı yaşayan Orduxan Bəbirov, Məhəmməd Mirzəli, Tural Sadıqlı kimi erməni lobbilərinin təsiri altında olanlar Azərbaycana qarşı sərt və barışmaz mövqe sərgiləyirlər. Sosial şəbəkələrdə, ölkəmizə və xalqımıza ünvanlanan şər və böhtan xarakterli videolar paylaşırlar. Nədinədi onlara kimsə, tulapayı verirlər. Kimlərsə, onlara yaşadıqları ölkələrdə oturum izni alırlar. Eləcə də, orduxanlar, mirzəlilər kimi düşüncə və əxlaq sahibi olan keçmiş səfir Arif Məmmədov. Bu məxluq dövlətinə və xalqına qarşı xəyanət yolu tutdu. Halbuki Hesablama Palatası Arif Məmmədovun rəhbərliyi dövründə Azərbaycanın Avropa Şurası yanındakı daimi missiyasında yol verilmiş korrupsiya hallarına dair faktları üzə çıxarıb. O, külli miqdarda ziyan vurmaqda, büdcə vəsaitlərinin qanunsuz istifadəsində ittiham olunur və həmin faktlar əsasında cinayət işi qaldırılıb. Bütün bunlara əsasən, demək olar ki, A.Məmmədov, O.Bəbirov, M.Mirzəli, T.Sadıqlı və digərləri milli maraqlarımızı təhqir etməklə, şərəfsiz fəaliyyətlərini uzun müddət davam etdirə bilməyəcəklər. Onların durdurulması və həbs olunaraq Azərbaycana gətirilmələri heç də uzaqda deyil. Necə ki, "Quska" ləqəbli H.Abdullayev həbs olunaraq, Azərbaycana gətirildi.

***İ.ƏLİYEV***

# "Əli Kərimli az qalır şortik geyinən qızın qalmaqalını da siyasiləşdirsin"



"**A**zərbaycanda sosial şəbəkədə saxta profillərin yaranmasının ideya müəllifi Əli Kərimlidir. Hətta bir neçə il bundan qabaq Əli Kərimlinin yanından istefa verən şəxslər mətbuatda açıqlama verirdilər ki, Kərimlinin tapşırığına əsasən hər bir partiya üzvü özünə 10 saxta profil açmalıdır və "facebook" sosial şəbəkəsində fəaliyyət göstərməlidir". Bunu SİA-ya açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Niyaməddin Orduxanlı deyib.

Onun sözlərinə görə, trollar vasitəsi ilə Kərimli özünün siyasi rəqiblərinə qarşı istifadə edib və etməkdədir: "Təsəvvür edirsiniz, Kərimlini tənqid edən şəxs dərhal trollar vasitəsi ilə çox pis formada təhqir olunur, təhdid edilir. Kərimlinin siyasi fəaliyyətini uzun illərdi tənqid edirəm və onun ölkənin maraqlarına ziyan vurduğunu bəyan edirəm. Dərhal mənim "facebook" profilimə və "instagram" səhifəmə saxta profillərlə təhdid dolu mesajlar gəlir. Bu yaxınlarda Emin Millinin özü açıq şəkildə bildirdi ki, Kərimlinin trolları ona qarşı təhqir dolu yazılar göndərirlər. Artıq Kərimli pusquda yırtıcıya bənzəyir. Hətta ölkəmiz də məişət səviyyəsində bir hadisə baş verən kimi, bunu ictimailəşdirir, siyasi çalarlar verir. Bununla da cəmiyyətdə guya "şok effekt" təsiri yaradır. Hər fürsətdən istifadə etmək istəyir. Pambıq tarlalarında baş vermiş zəhərlənmə hadisəsindən tutmuş, metroda şortik geyinən xanıma qədər. Əli Kərimli qısas hissi ilə yaşayan adamdır. Ancaq unudur ki, onun indiki vəziyyətə düşməsinin yeganə səbəbi etdiyi xəyanətlərdir. O, Elçibəydən tutmuş indiki hakimiyyətə qədər xəyanət etmiş adamdır və etdiyi xəyanətin bədəlini ödəyir".

# "Nar" Bakı Biznes Universitetində keçirilmiş əmək yarmarkasında iştirak etdi

**2**9 iyun 2018-ci ildə Bakı Biznes Universiteti tərəfindən təşkil edilmiş əmək yarmarkasında iştirak edən "Nar" müxtəlif vakant vəzifələrə sənəd qəbulu elan etdi. Əmək yarmarkasının keçirilməsində əsas məqsəd təşkilatçı universitetin tələbə və məzunlarının yiyələndikləri ixtisaslar üzrə müvafiq işlə təmin edilmələrinə dəstək göstərilməsindən ibarət idi. Eyni zamanda, tədbirə digər universitetlərdə təhsil alan tələbələr və məzunlar da dəvət edilmişdilər.

Qeyd edək ki, özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində təhsil və məşğulluğa böyük önəm verən "Nar" mütəmadi olaraq müxtəlif əmək yarmarkalarında iştirak edərək gənc kadrları şirkətdə ixtisasları üzrə işlə təmin etməyə çalışır. Daha öncə, fiziki məhdudiyyətli gənclərin işlə təmin edilməsi üçün təşkil edilmiş yarmarkada iştirak edən mobil operator belə gənclərin cəmiyyətə inteqrasiya edilməsi yönündə müxtəlif layihələr həyata keçirir.

Qeyd edək ki, ADA universitetində keçirilmiş tələbələr üçün əmək yarmarkasında isə "Nar" "Ən yaxşı işəgötürən şirkət" mükafatına layiq görülmüşdü. Mobil operatorun həyata keçirdiyi layihələr haqqında daha ətraflı nar.az internet səhifəsindən məlumat əldə etmək olar. "Azerfon" MMC ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini istifadəyə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Bu gün bəzi bölgələrdə havanın hərarəti 46 dərəcəyə yüksələcək




***A**zərbaycanda iyulun 3-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 25-27°, gündüz 40-43° isti, Bakıda gecə 25-27°, gündüz 40-42° isti olacağı ehtimalı var. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunu, nisbi rütubət gecə 50-60, gündüz 25-35 faiz təşkil edəcək.***

Abşeronun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada dəniz suyunun temperaturu 28-29°, cənub çimərliklərində isə - Türkan, Hövsan, Sahil və Şıxda 29-30° isti olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Anomal isti hava şəraiti ilə bağlı günorta saatlarında 11:00-17:00-dək günəş şüalarının birbaşa təsiri altında uzun müddət olmaq risklidir.

Xəbərdarlığa görə, iyulun 3-4-də Bakıda və Abşeron yarımadasında anomal qızmar hava şəraitinin davam edəcəyi, maksimal hərarətin 40-43° isti olacağı gözlənilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna əsasən, iyulun 3-4-də Abşeron yarımadasında isti hava dalğası ilə bağlı qızmar temperatur diskomfortu əksər əhali üçün əlverişsiz, meteohəssas insanlar üçün risklidir. Gündüz saatlarında uzun müddət açıq havada olmaq məsləhət görülmür. Azərbaycanın rayonlarında iyulun 3-də hava şəraitinin günəşli olacağı proqnozlaşdırılır. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 40-44°, bəzi yerlərdə 46°, dağlarda gecə 16-21°, gündüz 28-33° isti olacağı bildirilir.

Naxçıvan Muxtar Respublikasında (MR) hava günəşli olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 40-44°, bəzi yerlərdə 46° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 28-33° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 38-42° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 36-41° isti, dağlarda gecə 15-20°, gündüz 25-30° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 40-44°, bəzi yerlərdə 46° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26°, gündüz 37-42° isti, dağlarda gecə 17-22°, gündüz 28-33° isti olacağı ehtimal edilir.

Xəbərdarlığa əsasən, iyulun 3-4-də ölkə ərazisində anomal qızmar hava şəraitinin davam edəcəyi, Bakıda və Abşeron yarımadasında maksimal temperaturun 40-43°, Aran rayonlarında və Naxçıvan MR-də 40-44°, bəzi yerlərdə 46°, Qazax-Gəncə zonası, Böyük Qafqaz, Lənkəran-Astara rayonlarında 38-42°, dağlıq rayonlarda isə 28-33° dərəcə isti olacağı gözlənilir.

# Uşaq hüquqları beynəlxalq qanunlarda

***Hesabatların müzakirəsi zamanı, nəinki kəmiyyət göstəriciləri, həmçinin, uşaq hüquqlarının ayrı-ayrı aspektlərində çətinliklərin aradan qaldırılması məqsədilə zəruri tədbirlər təhlil edilir. 1991-ci ilin oktyabrında qəbul edilmiş ilkin məruzələrin hazırlanması və tərtib edilməsində iştirakçı dövlətlər üçün Rəhbər Prinsiplərə uyğun olaraq, hökumətlərə öz məruzələrini hazırlamaq tövsiyə olunur və bu prinsiplərdə qeyd edilir ki, dövlətin Konvensiya üzrə öhdəliklərini yerinə yetirmə dərəcəsinə təsir göstərən amillər və çətinliklər hcsabatda göstərilməlidir.***

Başqa sözlə desək, bu məruzə mövcud problemlər barədə məlumatların təqdim edilməsi istiqamətində olmalı və özünütənqtd xarakteri daşımalıdır. Dövlətlərə təklif olunur ki, Konvensiyanı həyata keçirilməsi sahəsində prioritetlər haqqında və gələcək üçün konkret vəzifələr barədə ətraflı informasiya təqdim etməlidirlər. Uşaq Hüquqları Komitəsi öz prosedurlarını işləyib-hazırlayarkən hökumətlərin nümayəndələri ilə konstruktiv dialoqun qurulması kimi mühüm məsələyə xüsusi diqqət yetirərək, BMT-nin müvafiq orqanları ilə və ixtisaslaşmış təsisatlar da daxil olmaqla, digər səlahiyyətli orqanlarla özünün sıx əməkdaşlığını qurmaq cəhdini aşkar şəkildə ifadə etmişdir.

Komitənin işçi qrupu iştirakçı dövlətlərdən alınmış məruzələri ilkin olaraq öyrənmək və komitə üzvləri ilə məruzələri göndərmiş dövlətlərin nümayəndələri arasında diskussiyaları hazırlamaq məqsədilə komitənin hər bir sessiyasından qabaq iclaslar keçirir. İşçi Qrup dövlətlərin təqdim etdikləri məruzələrdən əlavə, insan hüquqları üzrə digər müqavilə orqanlarının göndərdikləri informasiyaya baxır.

1993-cü ildə Uşaq Hüquqları Komitəsi hərbi münaqişələr zamanı uşaqların müdafiəsi məsələsinə dair araşdırma hazırlamağı BMT Baş Katibindən xahiş etməyi BMT Baş Məclisinə tövsiyə etmişdir. Bu prosedur yenilik xarakteri kəsb edir. Bundan sonra, uşaqların iqtisadı istismarı, ailə çərçivəsində uşaqların hüquqları, qızların hüquqları və yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Belə tematik mexanizmlər təxminən ildə bir dəfə keçirilən və müvafiq araşdırmaların aparılması haqqında xahişlərin təqdim edilməsi ilə nəticələnir.

Bundan sonra Uşaq Hüquqları Komitəsi konkret ölkələrdə insan Hüquqları sahəsində problemləri öyrənmək məqsədilə İnsan Hüquqları Komissiyasının (2006-cı ildən İnsan hüquqları Şurası) yaratdığı mexanizmlərdən, yaxud da konkret mövzulara baxmaqla məşğul olan mexanizmlərdən daxil olan informasiyanı qəbul edir. Belə mexanizmlər kimi İşgəncələrə dair Məsələlər üzrə Xüsusi məruzəçi, Məhkəmədənkənar cəzalara, lazımi məhkəmə araşdırması aparılmadan verilən cəzalara və ya qanunsuz cəzalara dair məsələlər üzrə xüsusi məruzəçi, qadınlara qarşı zorakılıq məsələləri üzrə xüsusi məruzəçi, uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyası məsələləri üzrə xüsusi məruzəçi xüsusi yer tutur.

BMT-nin orqanları, ixtisaslaşmış təsisatlar İşçi Qrupun keçirdiyi müzakirələrdə iştirak edə və zəruri informasiya təqdim edə bilərlər. Bundan başqa, müvafiq qeyri-hökumət təşkilatlarının təqdim etdiyi yazılı informasiya da nəzərə alınmaqla, komitə çox vaxt dövlətlərin göndərdikləri hesabatların öyrənilməsinə həsr olunan hazırlıq iclaslarında belə təşkilatlara iştirak etməyi təklif edir.

İştirakçı dövlətlərlə aparılan diskussiyalar konkret və məqsədyönlüdür, əldə edilən nəticələrin və işin gedişatının müzakirəsini nəzərdə tutur. Hesabata baxılma prosesi bitirdikdən sonra komitə yekun qeydlərini qəbul edir. Orada müvafiq dövlətin hesabatına baxılmağa yekun vurulur. Yekun qeydləri iştirakçı dövlətdə geniş yayılmalı və Konvensiyanın müddəalarına əməl edilməsinə yardım etmə yolları haqqında məsələ üzrə milli debatların keçirilməsi üçün təməl rolunu oynamalıdır. Komitə yekun qeydlərinə mühüm sənəd kimi baxaraq, hökumətləri oradakı tövsiyələri yerinə yetirməyə yönəldir.

Konvensiyada uşaqlar və ya onların nümayəndələri tərəfindən göndərilən konkret şikayətlərə baxılması proseduru yoxdur. Bununla belə, komitə 44-cü maddənin 4-cü bəndində göstərildiyi kimi, Konvensiyanın həyata keçirilməsinə aid əlavə informasiya üçün sorğu göndərə bilər. Bu cür əlavə informasiya üçün sorğu, məsələn, ciddi problemlərin mövcudluğunun əlamətləri aşkar edilən halda hökumətlərə göndərilə bilər.

Beləliklə, Uşaq Hüquqları Komitəsi hesabatlarının təqdim edilməsi üzrə dövlətlər üçün nəzərdə tutulan rəhbər prinsipləri hazırlayarkən, Konvensiyanın prinsip və müddəalarının həyata keçirilməsi üzrə konkret tədbirlərə xüsusi diqqət yetirir. Hər bir təqdim edilmiş hesabat barədə komitənin rəyi "Yekun qeydlər"də (Concluding observation) əks olunur və bir neçə bölmədən ibarətdir: giriş, pozitiv aspektlər, Konvensiyanın sonrakı yerinə yetirilməsinə təsir edən faktorlar və çətinliklər; narahatçılıq doğuran əsas problemlər; təkliflər və tövsiyələr.

Lakin dövlətlər tərəfindən komitəyə hesabatlar təqdim edilməsində kifayət qədər problemlər də mövcud olur. Başqa sözlə, Uşaq Hüquqları Komitəsindən danışarkən, burada mənfi bir hal kimi dövlətlər tərəfindən hesabatların təqdim edilməsində gecikdirmələrə yol verilməsi xüsusi qeyd edilməlidir. Belə ki, BMT Baş Katibinin 10 noyabr 1999-cu il tarixli məlumatına görə, 58 iştirakçı-dövlət ilkin hesabatını, 96 iştirakçı-dövlət isə cari hesabatları təqdim etməmişlər.

Uşaq Hüquqları haqqında Konvensiya və Uşaq Hüquqları Komitəsi uşaq hüquqlarının səmərəli müdafiəsini təmin etmə vasitəsi kimi beynəlxalq əməkdaşlığa və yardıma xüsusi əhəmiyyət verir. Belə ki, BMT-nin ixtisaslaşdırılmış təsisatlarının, Uşaq Fondunun və digər orqanların ixtiyarı vardır ki, bu Konvensiyanın onların səlahiyyəti dairəsinə daxil olan müddəalarının həyata keçirilməsi məsələlərinə baxılmasında təmsil edilsinlər. Uşaq Hüquqları Komitəsi məqsədəuyğun saydığı halda BMT ixtisaslaşdırılmış təsisatlarına, Uşaq Fonduna və digər səlahiyyətli orqanlara təklif edə bilər ki, onların müvafiq səlahiyyət dairəsinə daxil olan sahələrdə Konvensiyanın həyata keçirilməsi barədə ekspertlərin rəyini təqdim etsinlər. Eyni zamanda, Uşaq Hüquqları Komitəsi BMT ixtisaslaşdırılmış təsisatlarına, Uşaq Fonduna və digər orqanlara təklif edə bilər ki, onların fəaliyyət dairəsinə daxil olan sahələrdə Konvensiyanın həyata keçirilməsi haqqında məruzələr təqdim etsinlər.

İştirakçı-dövlətlərin hesabatlarına baxılmasından başqa, Uşaq Hüquqları Komitəsi YUNİSEF tərəfindən təşkil edilmiş və BMT-nin İnsan Hüquqları Mərkəzi və digər ixtisaslaşdırılmış təsisatların köməyi ilə 1992-ci ildə Latın Amerikasında; 1993-cü ildə isə Cənub-Şərqi Asiya regionu üzrə Belçikada regional iclaslar keçirilmişdir. Bu iclaslar Uşaq Hüquqları Konvensiyasının müddəalarının regional səviyyədə realizəsini təmin etmək, uşaq hüquqları sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, komitə üzvlərinə yerlərdə uşaq hüquqlarının həyata keçirilməsinə dair şəraitlə birbaşa tanış olmaq imkanı verir. Komitənin bu növ fəaliyyəti yeni iş metodu hesab edilməklə, uşaq hüquqlarının ən yaxşı həyata keçirilməsi fəaliyyət vasitəsi hesab edilir. Beləliklə, komitənin fəaliyyəti nəzarətlə bərabər, təhsil və təlim məqsədi daşıyır.

İnsan hüquqlarını həvəsləndirmək və müdafiə etmək məqsədilə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yardım göstərmək səlahiyyətinə malik olan insan hüquqları üzrə BMT Ali Komissarı hökumətlərə bununla bağlı müvafiq yardım göstərir və komitənin təqdim etdiyi tövsiyələrə müsbət reaksiya verməyi onlara tövsiyə edir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

> Konvensiyada uşaqlar və ya onların nümayəndələri tərəfindən göndərilən konkret şikayətlərə baxılması proseduru yoxdur. Bununla belə, komitə 44-cü maddənin 4-cü bəndində göstərildiyi kimi, Konvensiyanın həyata keçirilməsinə aid əlavə informasiya üçün sorğu göndərə bilər. Bu cür əlavə informasiya üçün sorğu, məsələn, ciddi problemlərin mövcudluğunun əlamətləri aşkar edilən halda hökumətlərə göndərilə bilər.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 3 iyul


## Uşaqlarda qızdırmanın yüksəlməsini həmişə xəstəlik kimi qəbul etmək düzgün deyil

Adətən qrip, qızdırma və başağrısı kimi xəstəliklər daha çox qışda müşahidə edilir. Lakin son vaxtlar həmin xəstəliklərə, xüsusən də qızdırmaya tez-tez rast gəlinir.

AZƏRTAC xəbər verir ki, mütəxəssislərin fikrincə, temperaturun yüksəlməsi xəstəlik deyil, həm fizioloji hal, həm də hansısa xəstəliyin əlaməti kimi üzə çıxa bilər. Xəstəlik kimi yüksək hərarətə infeksiyanın əlaməti kimi, fizioloji hal kimi gündüz saatlarında uşağı gəzməyə çıxaranda rast gəlinir. Uşağın orqanizmi böyüyə nisbətən zəif olduğuna görə belə hallar onlarda daha çox müşahidə edilir.

Bakı şəhər 4 nömrəli uşaq poliklinikasının həkim-pediatrı Məlahət Qasımova bu barədə deyib: "Günəş şüaları altında çox qalanda, gündəlik qəbul edilən mayenin miqdarı az olanda və üst geyimləri düzgün seçilməyəndə qızdırmanın qalxması baş verir. Həmin hallarda çox vaxt valideynlər təlaş keçirir və istilik 37 dərəcə olanda da temperaturu aşağı salan dərmanlar verirlər. Əslində bu, yanlış bir yoldur. Temperaturu fiziki üsullarla aşağı salmaq daha yaxşıdır. İlk növbədə uşağı sərin bir yerə çəkmək, sərin su ilə yuyundurmaq, sərin islatmalar qoymaq və su içirmək temperaturun normal səviyyəyə düşməsinə səbəb olur".

Pediatr paltar seçiminə də düzgün əməl edilməsini zəruri sayır. Onun dediyinə görə, uşaqlara isti havalı yay günlərdə açıq rəngli və nisbətən yüngül paltarlar geyindirmək lazımdır, çünki tünd rəngli paltarlar günəş şüalarını daha çox özündə saxlayır və bu da temperaturun qalxmasına səbəb olur.

"Bol maye içilməsi də vacib şərtlərdən biridir. Uşaqları səhər saat 11-dən axşam saat 17-dək gəzintiyə çıxarılmaqdan, günəş şüalarından uzaq saxlamağa çalışmaq lazımdır", - deyə həkim fikrinə yekun vurub.

## Ferstappen Avstriya Qran-Prisinin qalibi olub

"Red Bull" komandasının pilotu Maks Ferstappen Avstriya Qran- Prisinin qalibi olub. AZƏRTAC xəbər verir ki, yürüşün bu mərhələsində ikinci yeri "Ferrari" komandasının pilotu Kimi Raykkonen, üçüncü yeri isə Sebastyan Fettel tutub. Maks Ferstappen cari mövsümdə özünün birinci, karyerasında isə dördüncü dəfə qələbə qazanıb. "Mercedes" komandasının hər iki pilotu texniki problemlər üzündən yürüşü vaxtında əvvəl dayandırıblar.

Avstriya Qran-Prisi başa çatandan sonra Formula 1 dünya çempionatının ümumi hesabında Sebastyan Fettelə liderlik edir. Onun aktivində 146 xal var. İkinci yeri tutan Lyuis Hemilton Fetteldən cəmi bir xal geri qalır. Aktivində 101 xal olan Kimi Raykkonen isə Valtteri Bottası və Daniel Rikkardonu geridə qoyaraq üçüncü yerə çıxıb. Avstriya mərhələsindən sonra Konstruktorlar Kubokunda "Ferrari" liderlik edir. İkinci yeri "Mercedes", üçüncü yeri "Red Bull" komandaları tutur. Gələn həftə mübarizə Silverstounda davam edəcək.

## Sinoptiklər xəbərdarlıq edir: Anomal qızmar hava şəraiti davam edəcək

Sinoptiklər ölkə ərazisində müşahidə edilən anomal istilərlə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildirilib ki, iyulun 3-4-də ölkə ərazisində anomal qızmar hava şəraitinin davam edəcəyi, Bakıda və Abşeron yarımadasında maksimal temperaturun 40-43°, Aran rayonlarında və Naxçıvan MR-də 40-44°, bəzi yerlərdə 46°, Qazax-Gəncə zonası, Böyük Qafqaz, Lənkəran-Astara rayonlarında 38-42°, dağlıq rayonlarda isə 28-33° dərəcə isti olacağı gözlənilir.

Sinoptiklərin tibbi-meteoroloji xəbərdarlığına görə, iyulun 3-4-də Abşeron yarımadasında isti hava dalğası ilə bağlı qızmar temperatur diskomfortu əksər əhali üçün əlverişsiz, meteohəssas insanlar üçün risklidir. Gündüz saatlarında uzun müddət açıq havada olmaq məsləhət görülmür.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə VI tədris ilinin tələbəsi İbrahimov Hüseyn Nazim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Rusiya və Xorvatiya 1/4 finalda



DÇ-2018-in daha iki 1/8 final oyunu keçirilib. SİA-nın verdiyi xəbərə görə, ilk olaraq meydana ev sahibi Rusiya millisi çıxıb. Qonşu ölkə təmsilçisi mundialın favoritlərindən hesab olunan İspaniya ilə qarşılaşıb. İspanların qələbə şansı daha yüksək qiymətləndirilsə də, Rusiyanın rəqibindən fərqli olaraq pley-offa rahat yüksəlməsi və azarkeş amili matçın gərgin keçəcəyindən xəbər verirdi. 90 dəqiqəsi heç-heçə (1:1) başa çatan matçın əlavə vaxtında hesab dəyişməmiyindən qalib penaltilər seriyasında müəyyənləşib. Burada daha dəqiq oynayan Rusiya millisi adını 1/4 finala yazdırıb.

Digər oyunda isə Xorvatiya və Danimarka millilıri üz-üzə gəlib. Qrup mərhələsində Argentinanın qapısından 3 cavabsız top keçirən və maksimum xal toplayaraq 1/8 finala yüksələn xorvatlar çütün favoriti hesab olunsalar da, Danimarka artıq ilk dəqiqədə hesabı açıb. Cəmi 3 dəqiqə sonra Xorvatiya hesabı bərabərləşdirib. Matçın qalan dəqiqələrində, eləcə də əlavə olunmuş yarım saatda qalib aşkarlanmayıb. Penatilər seriyasında daha dəqiq oynayan xorvatlar 1/4 finalda Rusiyaya rəqib olublar.

## İnyesta İspaniya millisindən getdi



İspaniya yığmasının üzvü Andres İnyesta milli karyerasını başa vurub. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, 34 yaşlı yarımmüdafiəçi bu qərarı DÇ-2018-in 1/8 finalında Rusiyaya uduzaraq mübarizəni dayandırdıqları oyundan sonra açıqlayıb.

O, Rusiya ilə oyunun millidəki sonuncu çıxışı olduğunu bildirib: "Düşünürəm ki, karyeramın ən acı günüdür. Bəzən sonluq xəyal etdiyin kimi olmur. İspaniya yığması yenidən uğura yol tapmalıdır. Göründüyündən daha çətin olsa da, komandamız bunu bacarar". Qeyd edək ki, Andres İnyesta İspaniya yığmasında 2006-cı ildən çıxış edirdi. Bu müddət ərzində İnyesta 136 oyuna 13 qol vurub. O, yığma ilə dünya (2010) və ikiqat Avropa (2008, 2012) çempionu olub.

## Kriştianu Ronaldu "Yuventus" klubuna keçə bilər



"Real Madrid" və Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldu karyerasını "Yuventus"da davam etdirə bilər. AZƏRTAC xəbər verir ki, bu transfer onun agenti Jorje Mendeşin 11 illik düşmənçilikdən sonra "Yuventus" rəhbərliyi ilə barışması sayəsində mümkün ola bilər. Bu barədə "Tuttosport" və "As" nəşrləri məlumat yayıb. J.Mendeş bu həftə müdafiəçi Joao Kanselunun "Valensiya"dan "qoca senyora"ya keçidini təşkil edib. İtaliya klubunun əsas transfer hədəfi "Latsio"nun yarımmüdafiəçisi Sergey Milinkoviç-Saviçdir. Roma klubu onun keçidinə görə, 120 milyon avro tələb edir. Turin klubu serbiyalı futbolçunun transferindən imtina edə və həmin pulları Ronaldonun keçidinə sərf edə bilər. "Real Madrid" artıq Ronaldonun buraxılış qiymətini 1 milyard avrodan 120 milyon avroya endirmək qərarına gəlib.

## Məhəmməd Salah "Liverpul"da qaldı



Misirli futbolçu Məhəmməd Salah "Liverpul" ilə yeni uzunmüddətli müqavilə imzalayıb. SİA xəbər verir ki, 26 yaşlı hücumçu ilə yeni müqavilənin tarixi və müddəti açıqlamayıb. M.Salah "Liverpul"a 2017-ci ildə İtaliyanın "Roma" klubundan keçib. Həmin mövsümdə bütün turnirlərdə 52 oyun 44 qol vurub və 16 məhsuldar ötürmə verib. Misirli futbolçu İngiltərə Premyer Liqasının 2017/2018-ci il mövsümündə 32 qol ilə ən yaxşı futbolçu seçilib. Həmçinin Məhəmməd Salah Misir milli komandası ilə dünya çempionatında iştirak edib. Misir yığması "A" qrupunda üç məğlubiyyətlə mübarizəsini dayandırıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**